

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"Heydər Əliyev: multikulturalizm və tolerantlıq Azərbaycan cəmiyyətinin inkişaf konsepsiyası kimi"**




4

SƏS
№ 098 (6781)
6 iyun 2023-cü il.
Qiyməti 60 qəpik

# Böyük sayğı!



2

Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə səfərində diqqətçəkən məqamlar

# Erməni terroru bəşəriyyətin təhlükəsizliyinə təhdid yaradır




13

## İyun qiyamı: 30 il əvvəl hərbi çevriliş cəhdi niyə və necə baş verdi?



14

## İsti iyunun soyuqlu-Müşfiqli günləri



12

## Uşaqlara uşaqpulu, ailələrə təşviq lazımdır



15



## DİQQƏT: Diplomlar bu hallarda tanınmır!

16

## Mən yazmıram, qışqırıram



8

# Böyük saygı!

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə səfərində diqqətçəkən məqamlar

**İyunun 3-də Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər. Türkiyə Prezidenti və xanımı Əminə Ərdoğan mərasimdə iştirak edən Prezident İlham Əliyevi, birinci xanım Mehriban Əliyevanı, digər dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini salamlayıblar.**

Rəcəb Tayyib Ərdoğan çıxış edərək yenidən Prezident vəzifəsinə seçilməsi üçün ona etimad göstərən seçicilərə minnətdarlığını bildirib. Mayın 28-də keçirilmiş seçkilərdə millətin iradəsinin əksini tapdığını, "Türkiyə yüzilliyi"nin başladığını və ölkənin sıçrayış mərhələsinin qapılarının açıldığını vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan siyasi və dini baxışlarından, etnik mənsubiyyətindən asılı olmayaraq, 85 milyonluq əhalinin etimadını boşa çıxarmamaq üçün səylə çalışacaqlarını qeyd edib. Türkiyə Respublikasının yaradılmasının 100-cü ildönümündə sarsılmaz həmrəyliyə daha böyük ehtiyac duyulduğunu diqqətə çatdıran dövlət başçısı bu gün elan olunacaq yeni hökumətlə birlikdə "Türkiyə yüzilliyi" istiqamətində səylə çalışacaqlarını bildirərək deyib: "Gün bir olmaq, bərabər olmaq, min illik qardaşlığımızı daha da möhkəmləndirmək günüdür. Gün övladlarımızın aydın sabahlarına sahib çıxmaq günüdür... Birlikdə "Türkiyə yüzilliyi"nin inşası üçün çiyin-çiyinə çalışmalıyıq".









Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından mərasim iştirakçılarının şərəfinə şam yeməyi verilib. Azərbaycan Prezidenti və birinci xanım tədbirdə iştirak ediblər.

Mərasimdə diqqətçəkən məqamlar yetərincə idi. Xüsusən də, Azərbaycan Prezidenti İlham Əliyevlə bağlı. Prezident İlham Əliyevin hava limanından tədbirin keçirildiyi Cümhurbaşqanlığı Külliyəsinə qədər diqqət mərkəzində olması, Prezident Rəcəb Tayyib Ərdoğanın İlham Əliyevlə məxsusi görüşməsi və salona toplaşan minlərlə iştirakçının alqışları ilə qarşılanması qürurverici görüntülər idi. Təbii ki, bütün bu münasibətlərin arxasında qardaşlıq, dostluq, bir ürək, bir can bağlılığı var idi. Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub. Ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir.





Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Eyni zamanda, türk dünyasının daha sıx şəkildə bir araya gəlməsini bu gün şərtləndirən ən mühüm amillərdən biri də, məhz Azərbaycan və Türkiyənin münasibətlərinin inkişafından keçir. Prezident İlham Əliyev bununla bağlı maraqlı fikirlər səsləndirib: "Türkiyə-Azərbaycan əlaqələri, eyni zamanda, bütün türk dünyası üçün də mühüm rol oynayır. Biz türk dünyasının birləşməsi, türk dövlətləri arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk".

Hazırda siyasi müstəvidə ölkələrimiz arasında münasibətlər yüksək səviyyədədir, amma bunu hər gün artırmağa, inkişaf etdirməyə ehtiyac var. Çünki Azərbaycan və Türkiyənin mövcud potensialı iqtisadi sferada əlaqələrin, xüsusən də qarşılıqlı ticarət dövriyyəsinin həcminin indiki ilə müqayisədə xeyli dərəcədə artırılmasına imkan verir. Son günlər bu istiqamətdə bir sıra mühüm addımlar atılıb.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu rəşadətli Zəfər qazanaraq 30 illik işğala son qoymaqla beynəlxalq ədaləti bərpa etməsi böyük bir coğrafiyada əməkdaşlıq, qarşılıqlı faydalı münasibətlər kontekstindən yeni mənzərə yaradıb. Bu siyasi təntənənin təməlində Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri, qarşılıqlı faydalı əməkdaşlıq, Liderlərimizin birgə qərarları və davamlı olaraq həyata keçirilən beynəlxalq əhəmiyyətli layihələr dayanır. Bu gün Qarabağ Zəfəri qardaş ölkələrimizin tarixi səhifələrinə nur saçır. İkinci Qarabağ savaşında qazanılan Zəfər Türkiyə cəmiyyətində, qardaş ölkədə Azərbaycana sevgini zirvələrə yüksəldib. Bütün dünya, eləcə də bölgəmizdə strateji maraqları olan bütün tərəflər bir daha əmin oldular ki, mövzu vətənin təhlükəsizliyi, torpaqların bütövlüyü olanda, yalnız qətiyyətli qərarlar qəbul edilir. Bəli, Qarabağ Zəfəri iki qardaş dövlətin və xalqın birlik təntənəsidir.

***"Səs" qəzetinin siyasət şöbəsi***



# Qətiyyətli Lider-Müzəffər Ordu-yenilməz Xalq birliyi

## İLHAM ƏLİYEV: "Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi"

Bəli, qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. Və bu gün biz həqiqətən tarixi günlər yaşadıq və yaşayırıq. Xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "güclü dövlət" konsepsiyanın əsasını təşkil edən üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarının "Dəmir yumruq" əməliyyatı ilə 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu yüksək döyüş bacarığını nümayiş etdirərək bütün dünyaya öz gücünü, qüdrətini göstərdi. Ermənistan və havadarları tərəfindən işğal olunmuş torpaqlarımız əsgər və zabitlərimizin qanı və canı bahasına azad edildi. Bu, Prezident İlham Əliyev tərəfindən son 19 il ərzində həyata keçirilən "Güclü ordu - güclü dövlət" strategiyasının və "dəmir yumruq" siyasətinin nəticəsidir. Çünki haqqın qalibi Azərbaycandır və

### HAQQ YOLUNDA ADDIMLAYANIN KÖMƏYİ ÇOX, DÜŞMƏNİ YOX OLAR!

Çünki qələbəmizin rəmzinə çevrilən - Qarabağ Azərbaycandır və nida! Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir". Bu gün müstəqil Azərbaycanı güclü edən, onu sabitlik məkanına çevirən əsas amil də məhz xalqımızın ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirən Heydər Əliyev ideyalarına olan sonsuz sədaqətidir. Məhz elə buna görədir ki, 19 il əvvəl "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam" məramı ilə Prezident İlham Əliyevin həyatı xalqına və Vətəninə həsr olunmuş əsl Lider ömrüdür. Cənab İlham Əliyev Ulu Öndərimizin "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" fikirlərini reallığa çevirərək bir daha isbat etdi ki, O, məhz Vətəninin, xalqının rifahı üçün yaşayan Liderdir.

Prezident İlham Əliyev xalqa müraciətində də bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda gücümüzü göstərmişik, müstəqilliyimizi göstərmişik: "Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi - yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq, müzəffər ordumuz. Biz xalqımızla, ordumuzla fəxr edirik".

Bəli, 44 gün ərzində baş verən İkinci Vətən Müharibəsi Azərbaycan xalqının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Prezident İlham Əliyev nəyi necə və nə zaman etməyi özünün yaxşı bildiyini bir daha nümayiş etdirdi. Bu həm də xalqımızın birliyinin, Müzəffər Ordumuzun Gücünün, qəhrəman əsgər və zabitlərimizin öz Ali Baş Komandanı, Prezident İlham Əliyev ətrafında birliyinin dünyaya nümayişi oluğunun reallığıdır. Budur, Azərbaycan xalqının, əsgərinin əzmi, rəhbərinə, xalqına, torpağına, Vətəninə sadiqliyi. Bu qələbənin əsası isə Ali Baş Komandan, Prezident İlham Əliyevin yeni inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən çoxşaxəli islahatlar, kompleks tədbirlər sayəsində əldə edilən uğurlardır.

Artıq dünya birliyi, nəhayət ki, Ermənistanın beynəlxalq səviyyədə götürdüyü öhdəliklərin kobud şəkildə pozmaqda davam etdiyinin, sülh, atəşkəslə bağlı çağırışlara məhəl qoymadığının şahidi olur. Şahidi olurlar ki, işğalçı dövlətinin ordusunun sərhədboyu ərazilərdə ağlasığmaz qəddarlıqlar nəticəsində minlərlə dinc azərbaycanlı həlak olub, kəndlər, qəsəbələr, taixi-mədəni abidələr viran edilib. Dünya birmənalı şəkildə Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktını qəbul edir, beynəlxalq hüquq normalarına uyğun olaraq onu işğal altında saxladığı əraziləri azad etməyə çağırır. Çünki

### 44 GÜNDƏ MÜMKÜNSÜZÜ MÜMKÜN EDƏN GÜCLÜ AZƏRBAYCAN ORDUSUDUR

Prezident, Ali Baş Komandan İlham Əliyev çıxışlarında da dəfələrlə bildirmişdir ki, bu qələbə zamanında ordu sahəsində görülən işlərin nəticəsidir: "Ona görə biz güclü dövlət yaratmışıq, mən son illərdə dəfələrlə demişdim və bax, həyat mənim sözümü təsdiqlədi ki, bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır. Bizim hazırlıq işlərinin aparılmasında əsas amil xalq-iqtidar birliyi olmuşdur. Çünki bizim siyasətimiz xalq tərəfindən dəstəklənir, bizim siyasətimizə böyük inam var. Müharibə və onun nəticələri bir daha Azərbaycan xalqını əmin etdi ki, bu inamı bizə Azərbaycan xalqı bəxş etmişdir. Çünki nəyi demişiksə, onu da etmişik".

Və son 19 il ərzində Prezident İlham Əliyev iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə bəyan edirdi ki, Ermənistan Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli prosesinə ciddi səy göstərməsə, Azərbaycan torpaqlarını müharibə yolu ilə geri qaytaracaq. Və bunu da etdi. 2020-ci il sentyabrın 27-də başladığımız 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyev cənablarının "dəmir yumruğu" düşmənlərimizi acı və tarixi məğlubiyyətə düçar etdi. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat Ermənistanın məğlubiyyəti haqqında kapitulyasiya aktıdır. Bu Bəyanatı imzalamaqla Dağlıq Qarabağ ifadəsi gündəmdən çıxdı və Azərbaycanda belə bir ərazi vahidi artıq mövcud deyil. Bəli, artıq İkinci Vətən müharibəsinin qələbəsindən iki il ötür. İki il böyük zaman kəsiyi deyil. Və qısa müddətdə Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin miqyası olduqca möhtəşəm və genişdir. Görünən odur ki, cəmi 44 günə torpaqlarımızı azad edən Prezident İlham Əliyev ermənilərin viran qoyduğu yurd yerlərimizi sürətlə cənnətə çevirir. Öz doğma yerlərinə qayıdacaq vətəndaşlarımız üçün indi ən mükəmməl həyat şəraiti yaradılır.

Prezident İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşündə söyləyib ki, bu görüşün 28 May tarixində təşkil edilməsinin böyük rəmzi mənası olduğunu vurğulayan dövlətimizin başçısı deyib: "Bu gün müstəqil Azərbaycan dövləti həm dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib, eyni zamanda, bu gün müstəqil Azərbaycan dövləti istənilən nəticəni əldə etməyə qadirdir".

Bütün bu uğurlar isə Ali Baş Komandan, Qalib Lider, Prezident İlham Əliyev cənablarının siyasi iradəsinin göstəricisidir. Dövlət başçısı çıxışında laçınlıların uzun illər ərzində çəkdikləri həm fiziki, həm mənəvi əzablara, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində yaşamasına da toxunub. Daha ağır əzabın öz doğma torpağına qayıda bilməmək olduğunu vurğulayıb. O, belə qeyd edib: "Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim, deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Görürdüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? Amma bilirdim ki, qayıdacağıq və əgər indi 11 il bundan əvvəlki görüşün videoyazısına baxsanız, görərsiniz, demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu".

Çünki bu gün diktə edən tərəf qalib Azərbaycandır, Qalib Lider Prezident İlham Əliyevdir: "Mənim sözüm qətidir, bunu hər kəs bilir, həm Azərbaycanda, həm dünyada, o cümlədən Ermənistanda. Nəyi deyiriksə, onu da edirik. Bir dənə də olsun sözümüz, necə deyərlər, havada qalmayıb, bu söz də havada qalmayacaq".

Bəli, Qalib Liderimiz, Prezident İlham Əliyev cənablarının söylədiyi kimi: "Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi".

**RƏFİQƏ KAMALQIZI**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 460 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 27 iyul tarixli 308 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında daşınmaz əmlakın vahid dövlət kadastrının tərtib edilməsi və aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# Heydər Əliyev-100

# “Heydər Əliyev: multikulturalizm və tolerantlıq Azərbaycan cəmiyyətinin inkişaf konsepsiyası kimi”

## Yeni Azərbaycan Partiyası və Azərbaycanda Rus İcmasının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib

**İyunun 3-də Yeni Azərbaycan Partiyası (YAP) və Azərbaycanda Rus İcmasının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ”Heydər Əliyev: multikulturalizm və tolerantlıq Azərbaycan cəmiyyətinin inkişaf konsepsiyası kimi” mövzusunda konfrans keçirilib.**

Konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Liderimiz Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.









Konfransda çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu, müdrik dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə istər ölkəmizdə, istərsə də respublikamızın hüdudlarından kənarda keçirilən tədbirlər Ulu Öndərin müasir dövlətçilik tariximizdə müstəsna yerinin və rolunun tədqiq olunması baxımından olduqca önəmlidir: ”Ümummilli Liderimizin dünənin, bu günün və gələcəyin partiyası kimi səciyyələndirdiyi, 30 il ərzində zəngin və şərəfli inkişaf yolu keçərək Heydər Əliyev ideyaları əsasında Azərbaycana tarixi uğurlar - möhtəşəm nailiyyətlər qazandıran Yeni Azərbaycan Partiyası tərəfindən də ”Heydər Əliyev İli” çərçivəsində silsilə tədbirlər reallaşdırılmaqdadır. Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və Azərbaycanda Rus İcmasının birgə təşkilatçılığı ilə ”Heydər Əliyev: multikulturalizm və tolerantlıq Azərbaycan cəmiyyətinin inkişaf konsepsiyası kimi” mövzusunda keçirilən bugünkü konfrans da Heydər Əliyev irsinin öyrənilməsi, Onun əbədiyaşar ideyalarının geniş ictimaiyyətə çatdırılması və gənc nəslə aşılanması baxımından mühüm əhəmiyyətə malikdir”.

YAP Sədrinin müavini qeyd edib ki, çoxəsrlik dövlətçilik və müasir müstəqillik tariximizin ən taleyüklü məqamları, həlledici anları və tarixi nailiyyətləri məhz Heydər Əliyevin adı ilə bağlıdır. ”Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub”, - deyən Ümummilli Lider fəaliyyətinin bütün mərhələlərində Azərbaycanın inkişafına, milli maraqlarının, dövlətçilik mənafelərinin qorunmasına, tarixi ənənələrin və milli-mənəvi dəyərlərin yaşadılmasına xidmət edən misilsiz işlər görmüşdür. O, istər SSRİ dönəmində, istərsə də müstəqillik illərində böyük uğurlara imza ataraq xalqımızın parlaq gələcəyini təmin etmişdir. Heydər Əliyev sovetlər birliyi dövründə respublikamızın sosial-iqtisadi, elmi-mədəni inkişafına xidmət edən, böyük milli-mənəvi və siyasi-ideoloji əhəmiyyətə malik işlər görmüş, Azərbaycanın gələcək müstəqilliyinin bünövrəsini yaratmışdır. Xüsusi qeyd etmək istəyirəm ki, Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1969-1982-ci illər Azərbaycan SSR tarixində bütün sahələrdə inkişafla xarakterizə olunan ən parlaq dövrdür. Məhz 1969-cu ildən - Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişindən sonra atılan addımlar - görülən işlər hərtərəfli inkişafı və yüksəlişi təmin edən həlledici amil olmuşdur. Həmin tarixi mərhələyə nəzər salan Prezident İlham Əliyev qeyd etmişdir ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 13 il ərzində Azərbaycan Sovet İttifaqı çərçivəsində ən inkişaf etmiş və qabaqcıl respublikaya çevrilmişdir: ”Əlbəttə, Azərbaycan müstəqil deyildi və Sovet İttifaqında müəyyən ideoloji çərçivələr də var idi. Ancaq buna baxmayaraq, həm respublikanın sosial-iqtisadi inkişafında, həm milli-mənəvi dəyərlərin təbliğində o illərdə Heydər Əliyev böyük işlər görmüşdür”.

Tahir Budaqov vurğulayıb ki, 1982-ci ilin dekabrında SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi də Azərbaycanın mənafelərini qətiyyətlə qorumuş, xalqımızın rifahı və firavanlığı, respublikamızın inkişafı üçün vacib işlər görmüşdür: ”Bu, respublikanın 1969-1982-ci illər ərzində yaradılmış güclü sosial-iqtisadi baza əsasında inkişafını daha da sürətləndirmişdir. Bu dövrdə atılan addımlar təkcə Azərbaycan SSR-in deyil, Sovet ittifaqının tərkibində olan digər bir sıra respublikaların da inkişafına müstəsna töhfə olmuşdur. Xüsusi olaraq bir məqamı diqqətə çatdırmaq istəyirəm ki, Heydər Əliyevin istər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, istərsə də də SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi fəaliyyət göstərdiyi dövrlərdə respublikamızda digər xalqların nümayəndələri də qarşılıqlı anlaşma şəraitində yaşamış, onların bütün hüquqları qorunmuş, rifah və firavanlığı təmin edilmişdir.

Ardı Səh. 5

# “Heydər Əliyev: multikulturalizm və tolerantlıq Azərbaycan cəmiyyətinin inkişaf konsepsiyası kimi”

## Yeni Azərbaycan Partiyası və Azərbaycanda Rus İcmasının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib

**Əvvəli Səh.4**

Bir sözlə, hələ SSRİ dönəmində humanizm dəyərlərinə, multikultural ənənələrə söykənən tolerant yanaşma Azərbaycan cəmiyyətinin inkişafını təmin edən mühüm amillərdən biri olmuşdur”.

YAP Mərkəzi Aparatının rəhbəri deyib ki, Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər Azərbaycanın ən yeni tarixinə sosial-iqtisadi yüksəliş, mədəni intibah və bütövlükdə müstəqil dövlət quruculuğu dövrü kimi həkk olunmuşdur: ”Sosial-iqtisadi, siyasi və hüquqi islahatların aparılması, milli maraqlara, beynəlxalq hüquq normalarına və dövrün çağırışlarına əsaslanan xarici siyasət kursunun həyata keçirilməsi və digər amillər Azərbaycanın tərəqqisini, qarşıda duran milli hədəflərin reallaşmasını mümkün etmişdir. Ulu Öndər Heydər Əliyev xalqımızın zəngin milli-mənəvi dəyərlərin daşıyıcısı və çoxəsrlik dövlətçilik ənənələrinə sahib olduğunu, ölkəmizdə müxtəlif etnik və dini köklərə malik xalqların yaşadığını nəzərə alaraq həm milli maraqlara, həm də zamanın çağırışlarına uyğun siyasət həyata keçirmiş, multikultural dəyərlərin təşəkkülü təmin edilmiş və tolerantlıq mühiti gücləndirilmişdir. Ölkəmizdə yaşayan digər xalqların nümayəndələrinin bərabərhüquqlu vətəndaş kimi cəmiyyətə inteqrasiyası, etnik-mədəni özünəməxsusluğunu qoruyub saxlaması üçün istər hüquqi, istərsə də mənəvi müstəvidə bütün şərtlər təmin edilmiş - əlverişli şərait yaradılmışdır. ”Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq”,- deyən Ulu Öndər müstəqil Azərbaycana rəhbərliyi dövründə bu sərvətin qorunması və zənginləşməsi üçün məqsədyönlü siyasət həyata keçirmiş və müsbət nəticələr - diqqətəlayiq nailiyyətlər əldə edilmişdir”.



















lədiyi kimi, ”Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır ,- deyə Tahir Budaqov vurğulayıb.

YAP Mərkəzi Aparatının rəhbəri bildirib ki, bu gün Azərbaycanda mövcud olan icmalar cəmiyyət həyatının müxtəlif sahələrində səmərəli fəaliyyət göstərir, vətəndaş həmrəyliyinin, xalqlar arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsində mühüm rol oynayırlar. 30 illik yubileyini qeyd edən Azərbaycanda Rus İcması da bu baxımdan istisna deyil. Prezident İlham Əliyevin bildirdiyi kimi, ”Azərbaycanda rus icması həmişə əmin-amanlıq şəraitində yaşamış, dil və mədəniyyətini, milli və dini adət-ənənələrini qoruyub saxlamaqla, çoxmillətli cəmiyyətimizin etnik-mənəvi mənzərəsini özünəməxsus çalarlarla zənginləşdirmişdir”.

”Diqqətə çatdırmaq istəyirəm ki, bu gün Azərbaycanda rus dilində orta ümumtəhsil məktəbləri, ali təhsil ocaqları, universitetlərdə rusdilli bölmələr, rusdilli mətbu orqanlar və digər ictimai-mədəni qurumlar öz fəaliyyətlərini uğurla davam etdirirlər. Cənubi Qafqazın ən böyük rus icması olan Azərbaycanda Rus İcmasının nümayəndələri də öz hüquq və azadlıqlarından, mövcud şəraitdən istifadə edərək cəmiyyət həyatının müxtəlif sahələrində aktiv təmsil olunurlar”,- deyən YAP Sədrinin müavini qeyd edib ki, bütün bu gerçəkliklər Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən, dövlətçilik maraqlarına, milli-mənəvi və bəşəri dəyərlərə, xalqımızın tarixi ənənələrinə söykənən siyasətin real nəticəsidir.

YAP Sədrinin müavini söyləyib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin Heydər Əliyev ideyalarına əsaslanan siyasəti Azərbaycana böyük nailiyyətlər qazandırmaqdadır: ”Xüsusilə də, respublikamızda multikulturalizmin həm dövlət siyasəti olaraq müəyyənləşdirilməsi, həm də cəmiyyətin həyat tərzi olması Azərbaycanın sabitlik məkanı və inkişaf diyarı kimi müstəqillik yolunda inamlı irəliləyişini təmin edir. Bu gün ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələri sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşayırlar. Dünyada tolerantlıq nümunəsi kimi tanınan Azərbaycan zəngin tarixi irsi əsasında sivilizasiyalar arasında dialoqun inkişafını təşviq edir, bu yolun qarşılıqlı əməkdaşlığa, inteqrasiyaya, sülh və təhlükəsizliyə xidmət etdiyini nümayiş etdirir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın rəhbərliyi ilə multikulturalizmin, sivilizasiyalararası dialoqun, mədəniyyətlərin inteqrasiyası ideyasının təbliği və təşviqi istiqamətində ardıcıl işlərin görülməsi - mühüm layihələrin reallaşdırılması da həm ölkəmizdə tolerantlıq mühitinin güclənməsinə, həm də Azərbaycanın müsbət beynəlxalq imicinin daha da möhkəmlənməsinə təkan verir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: ”Əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır”.

”Bu gün ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri, fərqli dini və etnik mənsubiyyətə malik olan toplumlar Azərbaycanın inkişafına önəmli töhfələr verirlər. Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbədə ölkəmizdə yaşayan bütün xalqların, o cümlədən rus əsilli vətəndaşlarımızın payı var. Dövlət başçısının söy-

*Ardı Səh. 6*

# “Heydər Əliyev: multikulturalizm və tolerantlıq Azərbaycan cəmiyyətinin inkişaf konsepsiyası kimi”

## Yeni Azərbaycan Partiyası və Azərbaycanda Rus İcmasının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib

Əvvəli Səh.5

Ona görə də Azərbaycan xalqı, ölkəmizdə yaşayan müxtəlif toplumların nümayəndələri müstəqil dövlətimizin banisi, dahi şəxsiyyət, müdrik dövlət xadimi Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edir, Ulu Öndərin misilsiz xidmətlərini minnətdarlıqla xatırlayırlar.

”Fürsətdən istifadə edərək Azərbaycanda Rus İcmasının 30 illik yubileyi münasibətilə hər birinizi ürəkdən təbrik edir, tolerant, qalib və qüdrətli Azərbaycan naminə, xalqlarımız arasında dostluq münasibətlərinin daha da gücləndirilməsinə yönəlik fəaliyyətinizdə davamlı uğurlar arzulayıram”, - deyə Tahir Budaqov vurğulayıb.

Konfransda çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı, Azərbaycanda Rus İcmasının sədri Mixail Zabelin bildirib ki, Heydər Əliyevin adı təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da tanınır. Bu günlərdə Azərbaycan xalqı əlamətdar tarixi - Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyini qeyd edir. Onun sözlərinə görə, sabitliyin və inkişafın təmin edilməsi Heydər Əliyev siyasətinin ən mühüm nailiyyətlərindəndir: ”Heydər Əliyev xalqın ona göstərdiyi etimadı tam doğrultdu. Sabitliyin təmin olunması dövlətçiliyin möhkəmlənməsinə xidmət etdi, Azərbaycanın davamlı inkişafı üçün əlverişli zəmin yaratdı”.











M.Zabelin vurğulayıb ki, 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının yaradılması və Heydər Əliyevin partiyanın Sədri seçilməsi Azərbaycan üçün dönüş nöqtəsi oldu: ”Dövlətçiliyin süqutu təhlükəsi ilə üzləşdiyini görən Azərbaycan xalqı əmin idi ki, respublikanı bu təhlükəli vəziyyətdən yalnız Heydər Əliyev xilas edə bilər. Ən ağır günlərdə xalq öz taleyini yenidən Heydər Əliyevə bağladı. Xalq Heydər Əliyevin qayıdışını ümid və sevinclə qarşıladı. O, qısa müddətdə Azərbaycanı tənəzzüldən xilas edərək inkişaf yoluna çıxardı”.

Azərbaycanda Rus İcmasının sədri qeyd edib ki, Ümummilli Lider tolerant, çoxmillətli cəmiyyətin formalaşması və inkişafının vacibliyinə inam aşılamışdı. 1993-cü il iyunun 15-də Milli Məclisin iclasında çıxış edən Heydər Əliyev demişdi: ”Azərbaycan yüz illərdir ki, bu torpaqda yaşayan bütün insanların vətəni olub və gələcəkdə də Vətən olaraq qalmalıdır”. Məhz bu sözlər sonralar müasir demokratik, güclü Azərbaycanın əsaslarından birinə çevrildi.

Onun sözlərinə görə, Heydər Əliyev keçmiş SSRİ respublikaları arasında mehriban qonşuluq münasibətlərinə həmişə böyük əhəmiyyət verir, Rusiya-Azərbaycan əlaqələrinin gələcəyinə nikbinliklə baxırdı: ”Ümummilli Lider dostluğa, qarşılıqlı hörmətə, bərabərhüquqlu tərəfdaşlığa əsaslanan, regionda sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edən siyasət həyata keçirdi. Heydər Əliyev bu gün ölkələrimiz arasında dinamik inkişaf edən əməkdaşlığın əsasını qoydu”.

M.Zabelin diqqətə çatdırıb ki, Heydər Əliyevin xeyir-duası ilə 1993-cü ilin mayında Azərbaycanda Rus İcması yaradıldı və bu gün Cənubi Qafqazda ən böyük - 120 min nəfərdən çox üzvü olan icma 30 illik yubileyini qeyd edir, Vətənin rifahı naminə fəaliyyət göstərir. Bakı şəhərində və Azərbaycanın rayonlarında ”Azərbaycanda Rus İcmasının keçdiyi yolun 30 ili” adlı konfranslar keçirib, Heydər Əliyevin müstəsna xidmətlərindən bəhs ediblər.

O qeyd edib ki, multikulturalizm Ümummilli Liderin layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən dövlət siyasəti kimi müəyyənləşdirilib. Bu gün Azərbaycanın multikulturalizm və tolerantlıq modeli dünyada nümunə kimi göstərilir: ”Hər bir azərbaycanlı üçün adi görünən bu vəziyyət başqa ölkələrdə unikal nailiyyət kimi qəbul edilir. Bu, həqiqətən də, belədir. Azərbaycanda bütün etnik qrupların nümayəndələri fəxrlə özlərini Azərbaycan vətəndaşı adlandırır və hər zaman Vətənini müdafiə etməyə hazırdırlar. Bunun bariz nümunəsi İkinci Qarabağ müharibəsi idi, o zaman bütün Azərbaycan xalqı ölkənin ərazi bütövlüyünü qorumaq üçün səfərbər oldu”.

”Əminliklə qeyd etmək olar ki, Azərbaycanın ən böyük sərvətlərindən biri də bu gün bütün dinlərin və etnik qrupların nümayəndələrinin ləyaqətlə yaşaması, ölkənin inkişafına töhfə verməsidir. Azərbaycan vətəndaşları, o cümlədən ruslar Prezident İlham Əliyevin siyasətini dəstəkləyirlər. Eyni zamanda, onlar Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya ürəkdən minnətdardırlar”,- deyə M.Zabelin vurğulayıb.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli çıxışında bildirib ki, Azərbaycan dövlətinin mədəniyyət siyasətində multikulturalizm amili başlıca istiqamətlərdən biridir. Bu siyasət dövlət quruculuğunda, ölkənin mədəni və sosial həyatında əhəmiyyətli rol oynayıb. Azərbaycan çoxmillətli və çoxmədəniyyətli bir ölkədir və bu da ölkəmizin təbii varlığının bir hissəsidir: ”Bu istiqamətdə son 30 ildə ölkəmizin keçdiyi yola nəzər salmaq Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun strateji baxımdan nə qədər uzunmüddətli və bu gün üçün də nə qədər aktual olduğunu görməyə bir daha imkan verir. Ulu Öndər Heydər Əliyevin irəli sürdüyü ”azərbaycançılıq” konsepsiyası və bu konsepsiyanın əsas sütunları hesab edilən multikulturalizm və tolerantlıq ideyası hazırkı dövrdə də milli ideologiyamızın əsasını təşkil edir. Azərbaycan dövlətinin multikulturalizm siyasəti tərəqqi və inkişafımızın mühüm bir amilidir”.

Onun sözlərinə görə, fərqli millət və mədəniyyətlərin bir arada yaşaması və tərəqqisi mədəniyyət məkanının zənginliyini artırır, müxtəlif fikirləri bir araya gətirərək yaradıcılığa və innovasiyalara təşviq edir: ”Multikultiralizm və tolerantlıq müasir Azərbaycan cəmiyyətinin yaşam tərzi olmaqla bir sıra etnik, dini, linqvistik aspektlərlə yanaşı, mədəni aspektləri də əhatə edir. Özündə bütün müxtəliflikləri ehtiva edərək unikal birgəyaşayış nümunəsi yaradan Azərbaycan minillik tarixi olan İpək yolu üzərindəki bir çox mədəniyyətlərin, sivilizasiyaların qovuşduğu bir məkandır. Bu baxımdan, Ulu Öndərin irəli sürdüyü azərbaycançılıq konsepsiyası birləşdirici ideya kimi mədəniyyət sahəsində yeni çalarlar qazanaraq müasir Azərbaycanın multikulturalizm modelini formalaşdırıb”.

Adil Kərimli vurğulayıb ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkədə yaşayan bütün millətlərin və etnik qrupların mədəni dəyərlərinin qorunub saxlanılması və inkişafı ilə bağlı sistemli siyasət həyata keçirilir. Ulu Öndər Heydər Əliyev tərəfindən dövlət siyasətinin əsası kimi müəyyən edilən multikulturalizm və tolerantlıq Azərbaycan cəmiyyətinin milli ideologiyasının təməl prinsipidir. ”Təsadüfi deyil ki, Azərbaycan xalqı bu təməl prinsip əsasında bir yumruq kimi birləşdi və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində tarixi Zəfərə imza ataraq ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bütün xalqların nümayəndələrinin Zəfərə töhfəsini yüksək qiymətləndirib və Azərbaycanın burada yaşayan hər kəsin vətəni olduğunu dəfələrlə vurğulayıb”,- deyə nazir söyləyib.

Rusiya Xarici İşlər Nazirliyinin Həmvətənlərlə İşlər üzrə Departamentinin direktoru Aleksandr Nurizadə isə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun konfrans iştirakçılarına məktubunu oxuyub.

Həştərxan vilayətinin mədəniyyət və turizm naziri Olqa Prokofyeva çıxışında bildirib ki, multikulturalizm və tolerantlıq hər bir müasir, inkişaf edən dövlətin gələcəyi üçün vacibdir. Onun sözlərinə görə, Azərbaycanla Həştərxan vilayətini çoxmillətli müxtəliflik birləşdirir ki, bu da bizim əvəzsiz irsimiz və üstünlüyümüzdür. Vilayətdə 140-dan çox millət və etnik qrup təmsil olunur. ”Xalqların mədəniyyəti cəmiyyətdə birləşdirici rol oynayır, insanlar arasında yaxınlaşma və qarşılıqlı anlaşmaya, tolerantlıq prinsiplərinin bərqərar olmasına kömək edir. Bu gün Həştərxan vilayətinin Mədəniyyət Nazirliyinin qurumları tərəfindən xalqların birliyinin və etnik-mədəni inkişafının möhkəmləndirilməsinə yönəlmiş işlər mədəni və milli cəmiyyətlərlə birgə həyata keçirilir. Həştərxandakı azərbaycanlı icmasının nümayəndələri vilayətdə keçirilən müxtəlif bayram və festivalların, ümumrusiya aksiyalarının daimi iştirakçılarıdır. Birgə mədəni tədbirlər, bayramlar, incəsənət və sənətkarlıq sərgiləri keçirməklə biz xalqlarımızın əxlaq normalarına, adət-ənənələrinə uyğun ünsiyyət mədəniyyətini formalaşdırırıq” ,- deyə nazir söyləyib.

O qeyd edib ki, Heydər Əliyev səmərəli əməkdaşlığın əsasını qoyub və bunun sayəsində Azərbaycan bu gün Həştərxan vilayətinin əsas tərəfdaşlarından biridir. ”Biz nəqliyyat, ticarət, sənaye, kənd təsərrüfatı, mədəniyyət, təhsil, gənclər siyasəti və idman sahələrində sıx əməkdaşlıq edirik”, - deyən O. Prokofyeva vurğulayıb ki, Heydər Əliyev Fondu Həştərxanda bir çox sosial əhəmiyyətli layihələr həyata keçirib.

O bildirib ki, Həştərxan vilayətində Azərbaycan xalqının Ümummilli Liderinin xatirəsinə həsr olunmuş silsilə tədbirlər keçirilir. ”Birlik, harmoniya, qarşılıqlı hörmət kimi ümumbəşəri dəyərlər bundan sonra da dövlətlərimizdə sülhün və sabitliyin təminatı olacaq”,-deyə nazir vurğulayıb.

Çıxış edən Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi, Arximandrit Aleksiy Nikonorov bildirib ki, istənilən xalqın milli kodu bu xalqın dilinə, mədəniyyətinə, adət-ənənəsinə, dininə əsaslanır. Azərbaycanın milli kodu multikulturalizm, tolerantlıq, digər etnik qruplara və dini inanclara hörmət kimi elementləri özündə ehtiva edir. Onun fikrincə, ”multikulturalizm” anlayışına daha geniş nəzər salsaq, qeyd etməliyik ki, müasir dünyada 2000-dən çox müxtəlif mədəniyyətə və dinə mənsub xalqlar yaşayır. Hazırda BMT-yə 200-ə yaxın dövlət daxildir. Buradan belə nəticə çıxır ki, xalqlar müəyyən mənada birlikdə yaşamalıdırlar. Məhz multikulturalizm bütöv bir dövlətdə müxtəlif mədəniyyətlərin və dinlərin dinc yanaşı yaşamasını nəzərdə tutur.

Aleksiy Nikonorov deyib ki, Azərbaycanda müxtəlif mədəniyyətə və konfessiyaya malik insanlar sülh və əmin-amanlıq şəraitində yaşayır: ”Mədəniyyətlərin müxtəlifliyi qarşılıqlı mənəvi zənginləşmə mənbəyinə çevrilir, qarşılıqlı anlaşmanın möhkəmlənməsinə töhfə verir”.

Onun sözlərinə görə, Ümummilli lider Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyev multikulturalizmin Azərbaycan modelini bütün dünyaya təqdim ediblər: ”Azərbaycan təcrübəsi göstərir ki, multikulturalizm xalqların polietnik şəraitdə birgəyaşayışının ən optimal formasıdır. Azərbaycanda hər bir etnik qrupun mədəniyyətinin inkişafına, eyni zamanda, mədəniyyətlərarası inteqrasiyanın gücləndirilməsinə böyük diqqət yetirilir. Biz bütün bunları təqdir edirik”.

# Qeyri-rəsmi Kişinyov görüşünün PƏRDƏARXASI



**Kişinyovda beştərəfli formatda keçirilən qeyri-rəsmi görüşdə heç bir nəticənin əldə olunmayacağı öncədən bəlli idi. Hətta Mişelin bəyanatından belə aydın olur ki, masada indiyə qədərki gündəlik yenidən müzakirə olunub və növbəti beştərəfli görüşün keçirilməsi razılaşdırılıb. Bir sözlə, Kişinyovda keçirilən qeyri-rəsmi görüş bir növ bundan sonrakı görüşlər barədə razılığın alınması üçün planlaşdırılıbmış.**

Bu son qeyri-rəsmi görüşdə gündəliyin dəyişməməsi sözsüz ki, müsbət məqamdır. Elə Fransa kimi ermənipərəst dövlətin olduğu masada hansısa dırnaqarası "yeniliyin" olmaması belə müsbət məqamlardan hesab oluna bilər. Hərçənd, növbəti beştərəfli görüşlə bağlı razılıq Bakı-İrəvan münasibətlərinin qurulması prosesində oyunçuların sayının çoxalması deməkdir və formatın böyüməsi maraqların da çoxalması ilə nəticələnə bilər. Bəlkə də İrəvan buna prosesdən yayınmaq üçün manevr imkanı kimi də baxa bilər. Məsələ burasındadır ki, bu baxış özü də ermənilərin növbəti yanlışlığı olar, çünki rəsmi Bakı gündəliyin dəyişməsinə imkan verməyibsə, deməli onların üz tutduqları bütün masalarda qarşılarına eyni məsələlərin çıxması gözləniləndir, hətta bu yanaşmanın Ermənistan üçün əks-effekti də mümkün haldır.



Sözsüz ki, görüşlərin nəticəsiz olması heç də arzulanan deyil, çünki nəticəsiz görüşlər həm sərhəddə, həm Qarabağda gərginlik üçün zəmin yaradır. Hər dəfə belə danışıqların ardınca ermənilər hansısa təxribatlar törətməyi sanki öz vəzifələri hesab edirlər və olmayan ağıllarına korluq vermədən istənilən təxribata əl atırlar. Əlbəttə ki, bununla öz vəziyyətlərini daha da gərginləşdirmiş olurlar. Çünki bizim istənilən təxribatın öhdəsindən gəlmək üçün güümüz yetərlidir və bunu dərk etməyənlər özləri uduzmalı olurlar. Azərbaycan müzakirələrə paralel olaraq, suverenliyinə təhdid olan separatizmə qarşı praktiki addımlar atmaqda heç zaman çəkinən deyil. Əgər erməni separatizmi baş qaldırmış olarsa, başlarının əzilməsi üçün yalnız bircə əməliyyat kifayət edər.

Tərəflər hər iki ölkənin irəli sürdüyü şərtlər, sülh gündəliyi və motivlər, maraq və ziddiyyət yaradan amillərlə tanış olmalı idilər və məhz bu səbəbə görə həmin o qeyri-rəsmi görüşdə sülh sazişinin imzalanması onsuz da gözlənilmirdi. Lakin görüşdən dərhal sonra erməni baş nazirinin Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiya olunması, bunun 1975-ci il xəritəsinə uyğun həyata keçirilməsi haqqında bir daha bəyanat verməsi diqqət çəkən məqam hesab olunur. Bu onu deməyə əsas verir ki, sülh sazişinin imzalanmasında tərəflər israrlı görünürlər və sülh sazişinin qısa bir müddət ərzində imzalanması barədə pozitiv görüntülər var.

Azərbaycan, Ermənistan və Rusiya baş nazirləri müavinləri səviyyəsində yeni görüşün bu yaxınlarda Moskvada keçiriləcəyi də gözlənilir. Heç şübhəsiz ki, həmin görüşdə məhz hər iki dövlət tərəfindən sərhədlərin delimitasiya və demarkasiya olunması, eyni zamanda kommunikasiya xətlərinin açılması müzakirə oluna bilər. Həmçinin, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin yaxın günlərdə Vaşinqtonda da görüşünün olacağı onu deməyə əsas verir ki, sülh sazişinə hazır olunduğu bir daha bəyan edilib və bu istiqamətdə işlərin aparılmasında müsbət tendensiyalar da diqqəti cəlb etməyə bilməz. Təbii ki, Ermənistan tərəfi hansısa manipulyasiyalara əl atmasa. Üstəlik, 21 iyulda Brüssel görüşünün planlaşdırılması da müəyyən məqamlara aydınlıq gətirmək üçün şərtdir. Belə görünür ki, sonuncu qeyri-rəsmi beştərəfli görüşdən sonra tərəflər yekun sülh sazişini məhz Brüssel görüşündə müzakirə etmək niyyətindədirlər. Hətta o da ehtimal olunur ki, cari ilin oktyabr ayında İspaniyada keçirilməsi nəzərdə tutulan görüşdə tərəflər sülh sazişini imzalaya da bilərlər.

Paşinyan və müttəfiqləri Azərbaycan hökumətini sülh prosesi ilə bağlı mövqeyini dəyişməyə məcbur edə bilmədilər. Bu istiqamətdə uğursuzluğa düçar olan Paşinyan əks istiqamətə qaçıb və şənbə günü Türkiyə prezidenti, yenidən seçilən Ərdoğanın andiçmə mərasiminə gedərək türk qonşuları ilə münasibətlərin normallaşdırılması istiqamətində daha bir addım atmaq qərarına gəlib. Lakin Ermənistan liderinin zahiri ziddiyyətli hərəkətlərində ilk baxışda diqqəti yayındıran manevrlər var. Paşinyan çətin ki, sülh prosesində lider rolunu oynasın. Ermənistan rəhbərliyi Moldova paytaxtında Azərbaycan və Ermənistan liderlərinin növbəti qeyri-rəsmi görüşünün şərtlərindən şikayət belə edə bilməz. Keçən il Paşinyanın ən yaxşı müttəfiqi, Fransa prezidenti Makron tərəfindən icad edilən bu format Avropa Siyasi Birliyinin 2-ci Sammiti çərçivəsində keçirilib. Paşinyan özünü onun tanınmamış üzvü kimi qələmə verərək bundan yararlanmağa çalışıb, amma nəticə onun istədiyi kimi olmayıb. Paşinyan danışıqlar masası arxasında elementar say üstünlüyünə nail olmağa çalışsa da, bunun üçün Makronun iştirakına can atıb buna görə sevinsə də sevinci və arzusu ürəyində qalıb. Ona görə ki, Azərbaycanın yaratdığı reallıqlar qarşısında kimsə dayana bilməz və belə də olmalı idi. Paşinyana dəstək komandasının siyasi çəkisi belə ona yardım edə bilmədi, erməni baş nazir və müttəfiqləri qətiyyən heç nəyə nail olmadılar, görüş də heç bir sənəd qəbul edilmədən başa çatdı və bir daha əmin oldular ki, Azərbaycan Prezidenti təslim olan deyil, güclü siyasi iradəyə, qətiyyətə sahib olan qalib liderdir.

Bir saat yarım davam edən qeyri-rəsmi görüşdən sonra Çarlz Mişel heç bir sənəd imzalanmayan bu görüşə necə isə don geyindirmək, izahat vermək şansından istifadə edərək bildirdi ki, bu qeyri-rəsmi görüş iyulun 21-də Brüsseldə keçiriləcək növbəti görüşə hazırlıqdır. Məsələ aydındır və bəllidir ki, iyulda keçiriləcək görüşdən əlavə hələ bir növbəti beştərəfli görüşün Avropa Siyasi Birliyinin oktyabrda İspaniyada keçirməsi planlaşdırılan görüş də, sammit də nəzərdə tutulur. Amma Azərbaycan üçün heç bir fərqi yoxdur və harada, nə zaman keçirilməsindən asılı olmayaraq, biz qalib, haqlı tərəf olaraq görüşə qatılırıq və şərtlərimizi dəyişmək nəinki Paşinyanın, heç Makronun da imkanı, gücü daxilində deyil. Bəli, rəsmi Paris açıq şəkildə planlaşdırılan bu yeni formatda Azərbaycan-Ermənistan danışıqlarında aparıcı yeri tutmaq niyyətində görünür. Hətta Kişinyovdakı qeyri-rəsmi görüşdəki uğursuzluğundan Makronun heç utanmaq niyyətində də olmadığı bəlli olur.

Ermənistanın baş nazirinin sülh prosesi ilə bağlı hərəkətlərini izləyəndə onların məntiqini anlamaq bəzən çox çətin olur. Çünki Nikol Paşinyan heç bir şəkildə gözlənilməyən çox əyrixətli trayektoriya üzrə, özü də məntiqsiz hərəkətlər edir. Paşinyan Ermənistan dövlətinin bütün ideologiyasına tam yenidən baxılmasından danışır. "Biz, 1918 və 1991-ci illər olmaqla, iki dəfə Ermənistan Respublikasını yaratdıq. Və hər iki dəfə də Ermənistan böyük güc layihəsinin qurulması və ərazilərin genişləndirilməsi kimi qismən guya daha qlobal məqsədə alət olaraq qəbul edilib. Amma bizim tariximizdə Ermənistan Respublikası özlüyündə bir məqsəd kimi ya mövcud olmayıb, ya da çox kiçik olub", deyə Nikol Paşinyan Moldovanın erməni diasporu ilə görüşdə qeyd edib və bu o deməkdir ki, çox mənasız yerə çabaladığını artıq çoxdan başa düşüb.

Əslində, Cənubi Qafqazda sülhün təminatı prosesinə aparan yol heç də təsadüfən yaranmayıb, məhz Azərbaycanın yaratdığı strateji və iqtisadi amillər sayəsində ortaya çıxıb. Bu, Azərbaycanın hərtərəfli qələbəsidir. Əvvəlcə sarsıdıcı hərbi məğlubiyyət, sonra isə Qarabağdakı separatçı layihənin tədricən hər hansı iqtisadi əsasdan məhrum edilməsi erməni isteblişmentini nəhayət ki, öz siyasətini və ideologiyasını yenidən nəzərdən keçirmək barədə düşünməyə vadar edir. Beynəlxalq vəziyyətin dəyişməsini də buraya əlavə etmək mütləq vacibdir və etiraf edilməlidir ki, Azərbaycan hökuməti onilliklər ərzində bütün istiqamətlərdə, məhz regiondakı qonşularından tutmuş ABŞ, Aİ və Rusiya Federasiyasına kimi səbirlə beynəlxalq strategiya qurub və bu da uğurlu nəticəni, gözlənilən nəticəni verməyə bilməzdi. Paşinyan komandasının Azərbaycanla qarşıdurmaya xarici qüvvələri cəlb etmək cəhdlərinin son dərəcə uğursuzluqla nəticələnməsi heç də təsadüfi deyil, məhz həmin strategiyanın məntiqi sonluğu, bəhrəsidir. Məsələn, nümunə üçün qeyd edək ki, çərşənbə axşamı ABŞ prezidentinin məhz cənab Prezident İlham Əliyevin sülh prosesində rolunu, xüsusən də amnistiya ilə bağlı son addımlarını rəsmən dəstəkləməsi deyilənləri təsdiq edir. Təsdiq edir ki, özünü Qərbin əsas müttəfiqi kimi göstərməyə çox çalışan İrəvanın məhz Dövlət Departamentinin yenə də Bakının mövqeyi ilə razılaşmasını müşahidə etməsi özü Azərbaycanın qələbəsidir. Bu isə o deməkdir ki, Azərbaycanın, uğrunda mübarizə apardığı regiondakı sülh və birliyin bərpası qaçılmazdır. Təbii ki, regionda vəziyyətin dəyişməsi baxımından, xarici supergüclərin və blokların müdaxiləsi normallaşma proseslərinə hansısa mənfi təsirlə yadda qala bilər, amma Kişinyov görüşü göstərdi ki, Azərbaycanın hərbi gücü ilə yanaşı, sülhü pozmaq cəhdlərinə qarşı durmağa qadir mükəmməl diplomatiyası da var.

***İnam Hacıyev***

# Laçının bu günü dövlət-xalq birliyinin təzahürüdür!






**1992-ci ildə Laçın Ermənistan ordusu tərəfindən işğal olunanda da dövlət də var idi, xalq da. Xalq elə bugünkü xalq idi: qəhrəman, cəsarətli, qorxmaz, igid, vətənpərvər oğullar yetişdirən xalq. Lakin Azərbaycan dövlətinin ozamankı rəhbərliyi tam fərqli idi. Hakimiyyət uğrunda mübarizədən başqa heç nəyi ilə yadda qalmayan AXC-Müsavat cütlüyü bu xalqı şəxsi mənafelərinin qurbanına çevirmişdi. Onlara əbədi masa təklif edən böyük qardaşlarına elə canı-dildən inanmışdılar ki, bunun üçün bütün ölkəni, xalqı qurban verməyə hazır idilər. Elə qurban da verdilər.**

Azərbaycanın baş tacı olan Qarabağ onların vəzifə hərisliyinin qurbanı oldu. Xalq öz ata-baba yurdunu, əbədi torpaqlarını müdafiəyə qalxdı. Minlərlə oğul və qızımızı şəhid verdik. Minlərlə övladımız cəbhədən sağlamlığını itirərək qayıtdı. Lakin nəticə etibarilə ərazi bütövlüyümüz pozuldu, torpaqlarımızın 20 faizdən çoxu planlı şəkildə ermənilərə verildi.

Heç bir texnikası, silah-sursatı olmayan əliyalın xalq son anadək erməninin qarşısına çıxdı. Canından keçəcəyini, lakin torpağından keçməyəcəyini bildirdi. Lakin torpaqlar satılmışdı. Ermənilərə ərazilərimizə girmək üçün ən optimal yollar göstərilmişdi. Bu səbəbdən də minlərlə şəhid versək də, torpaqlarımızı qurtara bilmədik.

1992-ci ildə edilən böyük səhvin əzablarını düz 30 ilə yaxın bir dövrdə yaşadıq. Biz məcburi qaçqın, köçkünlərimizlə acınacaqlı bir tale yaşamalı olduq. Ölkə iqtisadiyyatını çökdürən ozamankı hakimiyyət onun arxasınca Qarabağın işğalı ilə dövlətə dəyəri milyonlarla ölçülən ziyan vurdu. Azərbaycan uzun illər bu zərərlərin aradan qaldırılmasına çalışdı. AXC-Müsavat cütlüyünün səhvinin aradan qaldırılması, torpaqlarımızın düşməndən geri alınması, ərazi bütövlüyümüzün təmin edilməsi məqsədilə illərlə mübarizə aparıldı. Bu, elə də asan məsələ deyildi...

### Öncə iqtisadiyyat, sonra ordu, daha sonra torpaqlar...

Azərbaycan çökmüş iqtisadiyyatı fonunda nə milli ordunun yaradılmasına, nə də torpaqların geri alınmasına nail ola bilərdi. Ölkə rifah halı aşağı səviyyədə olan xalqın, üstəlik, doğma evəşiyindən didərgin salınmış minlərlə məcburi köçkünün problemləri ilə üz-üzə qalmışdı.

Belə bir dövrdə Ümummilli Liderimiz Heydər Əliyev 20 yanvar 1990-cı ildə sovet imperiyasının Azərbaycanda törətdiyi qanlı faciədən sonra Moskvadan ölkəmizə qayıtdı. Ozamankı hakimiyyət vurğunları pis xisləti ilə onun Bakıda yaşamasına qarşı çıxdı. Belə olanda isə Ulu Öndər doğulduğu Naxçıvana qayıtmalı oldu. Və qayıtmasaydı, Naxçıvan da 90-cı illərin işğal planının qurbanı olacaqdı. Çünki 20 Yanvar hadisəsi fikirləri özünə yönəltməklə məhz Naxçıvanın işğalı üçün həyata keçirilmişdi.

Lakin Ulu Öndər naxçıvanlılarla birlikdə Naxçıvanı qorudu. Hələ üstəlik, Azərbaycanın müstəqilliyi üçün addımlar da məhz Naxçıvandan başlandı. Xalqın təkidi ilə hakimiyyətə dəvət olunan böyük şəxsiyyət Azərbaycanın çox ağır günlərində bu vəzifəni öhdəsinə götürdü. Tarix də, zaman da sübut etdi ki, Azərbaycanı o ağır vəziyyətdən yalnız Ulu Öndər xilas edə bilərdi.

Heydər Əliyev dövründə bütün mürtəce qüvvələr hakimiyyətdən uzaqlaşdırıldı. Onların ölkənin müxtəlif ərazilərində həyata keçirmək istədikləri qarşıdurmaların qarşısı alındı. Ölkə iqtisadiyyatı dirçəlməyə başladı. Bu zaman milli ordunun da yaradılması reallaşdı.

Ulu Öndər Azərbaycanda elə bir idarəetmə sistemi tətbiq etdi ki, bununla ölkəmiz qısa zaman ərzində hərtərəfli inkişafa qədəm qoydu. Bütün dünya Azərbaycanı tanıdı. İqtisadi müqavilələr ölkənin gələcək inkişafı xəttini müəyyənləşdirdi.



Lalə Mehralı

## Mən yazmıram, qışqırıram

Haradan, necə başlayasan deyə bəzən fikirləşə-fikirləşə qalır insan. Bəzən yaza bilmirəm, beynim dayanır, informasiyalar kilidlənir, zəkam korşalır, düşünmə qabiliyyətim donur sanki. "Bəlkə bir az ara verməklazımdır" - deyə fikirləşirəm, amma onda da yaza bilmədiklərim, yazmadıqlarım içimi çırmaqlayır, deyə bilmədiklərim boğazıma yapışır.

Yazmaq, həm də sizi tanımayan biri ilə dərdləşmək, söhbətləşmək deməkdir və mənə görə ən yaxşı terapiyadır. Bəzən yazıya başlayanda beynimi əsir alan, düyün düşmüş, həlli məchul olan bir məsələnin yazını bitirdikdə həll olduğunu da görürəm. Elə yaza-yaza doğru yolu tapıram. Boğula-boğula yazmağa başladığım yazının son nöqtəsini qoyanda yüngülləşirəm bəzən.

Amma...

Bəzən də 20 ildir yazan biri kimi çətinlik çəkirəm sözləri seçməyə, kəlmələri yazıya düzməyə. Boğularaq, boğazım düyünlənərək, qəhərdən udquna-udquna yazıram bəzi yazıları. Divarları, tavanı, döşəməsi qan olan dünyanın dözülməz hadisələrinə şahid olduqca, sinirə bilmədiyim, uda bilmədiyim gerçəklikləri qəbul edə bilmədikcə havalanıram sanki.

Bəzən yazılarımın bağırdığını, qışqırdığını hiss edirəm, çünki elə vəziyyətlər, elə situasiyalar var ki, onu bağıraraq eşitdirmək istəyirsən, yazaraq yox. O yazıların yükü çiynimi əzir, yazacaqlarımın bütün ağrısını, acısını, öldürülən uşaqların əzabını, valideynlərinin çarəsizliyini ifadə edə bilmədikdə, sözlər aciz qalanda, kəlmələr çarəsiz olanda mən də çarəsiz qalıram...

Haradasa zibil qutusuna atılan körpənin olduğunu, hansısa ölkənin qaranlıq zirzəmisində istismar edilən uşağın çarəsizliyini, hansı cəhənnəmdəsə təcavüzə uğrayan uşağın olduğunu düşündükcə gözlərimdən od çıxır. İçində uşaqların-ən məsumların, ən təmizlərin, ən günahsızların yaşadığı dünyamızı nə hala, nə vəziyyətə gətirib çıxardı insanlar.

Hər gün 200 milyon uşağın ac olduğunu, 300 min uşaq əsgərin döyüşə göndərildiyini, hər gün 10 min uşağın aclıqdan xəstəlikdən, səfalətdən öldüyünü, 200 mindən çox uşağın zirzəmilərdə ağır işlərdə işlədildiyini bilə-bilə normal həyata davam etmək çətindir. Öz övladını öpüb bağrına basdıqca haradasa kimsəsiz bir uşağın gözlərini yola dikdiyini düşünürsən, öz balanı yedirəndə haradasa bir körpənin aclıqdan ağladığını hiss edirsən. Mənən çökürsən, sustalırsan.

İnsanlar üçün dünya getdikcə cəhənnəmə çevrilir, müharibələr, xaos, qarşıdurma, epidemiyalar, ehhh, daha nələr... Özü, öz əli ilə evini başına yıxır insan. Özü oturduğu budağı kəsir. Dini kitablarda qiyamət günləri haqqında danışılır, əlamətləri yazılır - məncə yaxınlaşırıq o günə. Yeni bir Nuh tufanı qaçınılmaz olacaq bu gedişlə. Uşaqların zorlandığı, təcavüz edildiyi, oğurlandığı, istismar edildiyi, qul kimi işlədildiyi, günahsız insanların müharibələrdə, soyqırımlarda qətl edildiyi bir dünya Tanrının nəyinə lazımdır ki? Ağacın hansı budağını kəsərlər? Qurumuş olan budağı təbii ki.

Müharibələrdə öldürülən günahsız insanların, işgəncə verilən məsumların ahı həkk olub dünyanın divarlarına, hərdən eşidirəm mən. Müharibə qan deməkdir, ölüm deməkdir, ağı deməkdir, bayatı deməkdir. Dünya böyük bir müharibə meydanı deməkdir mənə görə. Kimə lazımdır ki bu cür dünya? Qan qoxuyan, ölüm iylənən...

Qul kimi alınan, satılan, istismar, təcavüz edilən körpə uşaqların iniltisi gəlir qulağıma bəzən. "İlahi, mən dəli oluram, deyəsən" - deyə düşündüyüm də çox olub. Qulaqlarımı əllərimlə tuturam, açıram, yenə eşidirəm. Dünyanın tavanı çatlayıb, döşəməsi deşilib, divarları yıxılıb, daha boğa bilmir o səsləri.

Eynşteyn deyirdi ki, əgər dünyada xoşbəxt olmayan bircə uşaq varsa, o zaman bütün yeniliklər və icadlar böyük bir heçdir. Atın o icadları dənizlərə, yandırın o böyük ixtiraları - əgər dünyada yaradılışın incisi olan bircə insan əzab çəkirsə, nə əhəmiyyəti var ki onların?

1993-2003-cü illərin hər anında Ulu Öndərimiz bütün çıxışlarında, səfərləri zamanı Qarabağın Azərbaycanın əzəli torpaqları olduğundan bəhs edir və bu torpaqların bir gün azad ediləcəyini bildirirdi. Ermənistanı dəfələrlə sülhə dəvət edir, dünyanı bu problemin həllinə çağırırdı. Lakin Ermənistan danışıqlara gəlmir, dünya isə susmaq mövqeyində dayanırdı.

Ulu Öndərin arzusunda olduğu, lakin ömrün vəfasızlığından reallaşdıra bilmədiyi məsələlərin hər birini dövlətimizin başçısı cənab İlham Əliyev böyük uzaqgörənliklə həyata keçirdi. 2020-ci ilə qədər ötən 17 illik fəaliyyəti dövründə ölkənin hərtərəfli inkişafı ilə Qarabağın azad olunması məsələsi paralel şəkildə aparıldı. Qısa zamanda ölkə iqtisadiyyatı gücləndi, milli ordu quruculuğu sürətlə həyata keçirildi. Ordu quruculuğuna ayrılan vəsait Ermənistanın ümumi büdcəsindən artıq oldu.

Dövlətimizin başçısı bütün dünyanı Ermənistan-Azərbaycan probleminin sülh yolu ilə həllinə çağırdı. Dünyanın ən mötəbər kürsülərindən Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu tarixi reallıqlarla sübut edərək erməniləri susdurdu. Bütün dünyaya haqlı olduğumuzu sübut etdi.

2020-ci ilədək xalqa yeni il və digər bayramlarla bağlı müraciətlərində, səfərləri zamanı çıxışlarında Qarabağın ya danışıqlar yolu, ya da hərb yolu ilə bir gün alınacağını qətiyyətlə söylədi. Bütün bunlar isə xalqda inam yaratdı. Dövlət-xalq birliyi də məhz bu kimi proseslərdən sonra formalaşır. Xalq heç vaxt inanmadığı dövlət rəhbəri ilə həmrəy ola bilmir. Bunu AXC-Müsavat cütlüyünün Azərbaycana rəhbərliyi illərində gördük. Lakin xalq cənab İlham Əliyevin ətrafında birləşdi. Çünki açıqca gördü ki, Azərbaycanı yox olmaq təhlükəsindən Ümummilli Lider Heydər Əliyev və onun siyasi varisi cənab İlham Əliyev qurtardı.

## 2020-ci il 27 sentyabr

Dövlətimizin başçısının vəd verdiyi o gün gəlib çatmışdı. 27 sentyabr 2020-ci il. Bu zaman Azərbaycan artıq 30 il əvvəlki Azərbaycan deyildi. Azərbaycan böyük iqtisadi gücə malik, dünyanın tanıdığı, hesablaşdığı, güclü milli ordusu olan, vətənpərvər gənclərə, xüsusilə də dövlət-xalq birliyi əsasında formalaşan həmrəyliyə malik bir ölkə idi.

Ermənistan isə 30 il əvvəlki təfəkkürdə qalmış bir ölkə idi. O, hələ də "böyük Ermənistan" xülyası ilə yaşayır, qeyri-sağlam təfəkkürü ilə Azərbaycanın gücünü görə bilmirdi. Bu səbəbdən də yeni torpaqlar işğal etmək arzusu ilə meydana atılmışdı. Elə İkinci Vətən müharibəsinin başlanma səbəbi də bu oldu. Yadımdadır, dövlətimizin başçısı 27 sentyabrda səhər saatlarında xalqa müraciət edəndə də bunu vurğulamışdı. Ermənilərin yeni torpaqlara iştahlandığını, lakin bunun son olduğunu bildirmişdi.

Beləliklə, 27 sentyabr 2020-ci ildə Ermənistanın 30 illik əməllərinə son qoymaq üçün müharibəyə başladıq. Elə mürharibənin ilk günləri Prezident İlham Əliyev bir neçə yüksəklik və kəndlərin geri alındığı müjdəsini verdi. Bu gündən həmin 44 günü nəzər salanda adamın ürəyi qürurla dolur. Hər kəs təsdiq edər ki, Azərbaycanda dövlət-xalq birliyi həmin günlərdəki qədər möhkəm, eyni zamanda xoş duyğularla dolu olmamışdı. Çünki müharibə idi. Hər an hadisələr bizim istədiyimiz kimi olmurdu. Hər an xoş xəbər eşitmirdik.

Dövlətimizin başçısının çağırışı ilə bütün xalq ayağa qalxmışdı. Hamı könüllü şəkildə cəbhəyə yollanmaq istəyirdi. Səfərbərlik idarələrinin qarşısı insanla dolu idi. Hər gün televiziya vasitəsilə hadisələri izləyir, "dövlət başçısının müraciəti olacaq" xəbərini alan kimi yenə müjdəli xəbər eşidəcəyimizə əmin olurduq. Beləliklə, 44 gün ərzində Prezidentimiz dəfələrlə xalqa müraciət etdi və ərazilərimizin işğaldan azad olunduğu xəbərlərini xalqına verdi.

Erməni ordusunun məhvi, 30 ildə yaratdıqları keçilməz müdafiə istehkamlarının yerlə yeksan edilməsi, onların Azərbaycan haqqında köhnə fikirlərinin alt-üst olması, hər gün bir qədər geri çəkilmələri, Azərbaycan ordusu qarşısında tab gətirə bilməmələri və müharibənin 44-cü günü Şuşanın azad olunmasından sonra məğlubiyyətlərini dərk edib kapitulyasiyaya gəlmələri bütün dünyaya xalqımızın gücünü, həmrəyliyini, dövlət başçısı, dəmir yumruq ətrafında sıx birləşməyimizi göstərdi. Dünya da bunu heyranlıqla qarşıladı. Dünənədək susanlar bu dəfə münasibətlərini bildirməyə başladı...



44 gün sonra müharibə bitdi. Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış birgə Bəyanatla Laçın, Kəlbəcər və Ağdam boşaldılmalı və Azərbaycana təhvil verilməli idi. Artıq dekabr ayının 1-də Laçın 30 ildən sonra anası Azərbaycana qovuşdu. Bu müjdəli xəbəri də ölkəmizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyevdən aldıq: "Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

## Laçına bərabər Laçın dəhlizi

Laçın dəhlizi ermənilər üçün olduqca böyük əhəmiyyətə malik idi. Bu, 1992-ci ilin mayında Azərbaycan Respublikasının ərazisində erməni qüvvələri tərəfindən Qarabağın qondarma "Dağlıq Qarabağ Respublikası" ilə Ermənistan Respublikası arasında açılan dəhlizdir. Uzun illər boyu fəaliyyət göstərən bu dəhliz Ermənistanı Qarabağın dağlıq hissəsinə birləşdirən yeganə təchizat və təminat yolu olaraq Qarabağ müharibəsinin ilk mərhələsində Ermənistanla separatçılar arasında "nəfəs borusu" rolunu oynayıb. Həm müharibə dövrü, həm də ikinci yol çəkilənə qədər Ermənistan Qarabağın bütün hərbi, texniki və mülki təchizatını bu yol vasitəsilə həyata keçirib. Məhz buna görə də Laçın ərazisinin Azərbaycana qaytarılması və ya heç olmasa bu dəhlizin erməni tərəfinin hərəkəti üçün bağlanılması, Ermənistanı Qarabağ ərazilərinə nəzarətdən məhrum edirdi. Bu dəhlizdən qondarma Dağlıq Qarabağ Respublikası Ermənistana böyük miqdarda ərzaq və digər materiallar keçirir, əvəzində isə Ermənistan Respublikası Dağlıq Qarabağ Respublikasından elektrik alırdı. Bir sözlə, Laçın dəhlizi olmadan Qarabağ, Şuşa ola bilməzdi onlar üçün. Ona görə də burada mövqelərini gücləndirmişdilər. Lakin bir zamanlar öz əlləri ilə başqasının torpağında, Laçın şəhərinin tən ortasından açdıqları dəhliz, sən demə, qarşıdakı illərdə ölkəmizin rəhbəri tərəfindən onların ölüm tunelinə çevriləcəkdi. Çevrildi də. Ermənilərin Laçından çıxması görüntülərini televiziya vasitəsilə izləyənlər bunun bir daha şahidi oldular ki, onların nəfəs boruları tıxanmışdı. Çünki Laçın dəhlizi əllərindən çıxırdı, deməli, həyat onları tərk edirdi.

Azərbaycan Respublikası Prezidentinin xalqa müraciətindən: "Laçın rayonunun strateji əhəmiyyəti, eyni zamanda ondan ibarətdir ki, rayon ərazisindən və Laçın şəhərinin içi ilə Laçın dəhlizi keçir. Bildiyiniz kimi, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilibdir. Dəhliz uzun illər erməni silahlı qüvvələrinin, işğalçıların nəzarətində idi. Deyə bilərəm ki, noyabrın 10-da imzalanmış birgə Bəyanatın ilkin versiyasında bu dəhlizin erməni silahlı qüvvələrinin nəzarətində qalması ilə əlaqədar müddəa var idi. Mən buna etiraz etdim və nəticədə, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilmişdir. Hesab edirəm ki, bu, çox böyük nailiyyətdir. Laçın dəhlizi erməni işğalçı qüvvələrindən təmizlənib. Onu da bildirməliyəm ki, Bəyanatın ilkin versiyasının üzərində fəal işlər gedirdi, xüsusilə Şuşa şəhəri işğaldan azad olunandan sonra qısa müddət ərzində. Bəyanatın ilkin versiyasında bizə təklif edilirdi ki, Laçın dəhlizinin eni 30 kilometr olsun. Mən buna qəti etiraz etdim və dedim ki, Ermənistan tərəfinin bu iddiası tamamilə əsassızdır. Dəhliz çərçivəsində təhlükəsizlik tədbirlərini təmin etmək üçün bu qədər geniş dəhlizə ehtiyac yoxdur. Ona görə mən bunu tamamilə qəbuledilməz təklif kimi hesab etdim və öz fikrimi bildirdim. Ondan sonra ikinci variantda Laçın dəhlizinin eni 10 kilometr nəzərdə tutulurdu. Buna da mən razılıq vermədim və nəticədə, 5 kilometr eni olan dəhliz haqqında razılıq əldə edildi. Beş kilometr həm bizim üçün, həm Dağlıq Qarabağda yaşayan ermənilər üçün və təhlükəsizliyi təmin etmək üçün kifayət qədər məsafəni əhatə edir".

Dövlətimizin başçısı onu da vurğulayırdı ki, uzun illər ərzində - 30 ilə yaxın aparılan danışıqlarda Laçın rayonunun Azərbaycana qaytarılması, xüsusilə Laçın dəhlizi ilə bağlı olan məsələ həmişə çox önəmli və ayrı bir mövzu kimi müzakirə olunurdu. Ermənistan tərəfi, ümumiyyətlə, hesab edirdi ki, bütün Laçın rayonu onlara dəhliz kimi verilməlidir. Əfsuslar olsun ki, bəzi Qərb dairələri bu mövqeyi dəstəkləyirdi. Bu da Ermənistanın mövqeyini daha barışmaz edirdi və demək olar ki, düşmən tamamilə azğınlaşmışdı. Bunun nəticəsində, məhz Laçın rayonunda çox ciddi məskunlaşma siyasəti aparılırdı. İşğaldan azad edilmiş digər yerlərdə qanunsuz məskunlaşma baş verirdi, amma bu dərəcədə yox, bu həcmdə yox.

Beləliklə Laçının işğaldan azad olunması ikiqat qələbə sevincini bizə bəxş etdi. Ölkəmizin başçısının uzun illər apardığı danışıqların, həyata keçirdiyi tədbirlərin nəticəsi olaraq bu qədər böyük əhəmiyyətə malik olan yurd yerimiz ermənilərin və onların havadarlarının istəklərinin əksi olaraq geri qaytarıldı. Laçın ermənilərə göz dağı oldu.

## Laçına Qayıdış-qürur üzərinə qürur

Müharibənin Zəfərlə bitməsi xalqımıza böyük qürur hissi yaşatdı. O gündən bu günə kimi isə onlarla belə qürurlu anlar yaşamışıq. Qürurlu anlardan birini də may ayının 28-də Laçın 31 il sonra doğma sakinlərini qoynuna alanda yaşadıq.

Prezident İlham Əliyevin Laçın şəhərinə qayıdan əhali ilə görüşündəki çıxışı böyük tarixi faktlar toplusudur. Kəlmə-kəlmə dinlədiyimiz dəyərli fikirlər bizi yenidən 44 günə apardı. Lakin burada bir fərq vardı. Biz artıq bu fikirləri Ermənistan üzərində tam qələbəni qazanmış müzəffər Ali Baş Komandandan dinləyirdik.

Prezident evlərin açarlarını Laçın sakinlərinə təqdim etdi və dedi: Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni, öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim, deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Gördüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni, 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? Amma bilirdim ki, qayıdacağıq və əgər indi 11 il bundan əvvəlki görüşün videoyazısına baxsanız, görərsiniz demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız. Biz çalışacağıq ki, bunu bundan sonra da təmin edək.

Mən sizi həm qayıtmağınız, həm də bayram münasibətilə təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram.

Dövlətimizin başçısı daha sonra vurğuladı: Bu gün yeni Laçın şəhərinin yeni siması müstəqilliyimizin nə qədər güclü olmasını bir daha göstərir. Çünki cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub və sizin sərəncamınıza verilir. İlk 20 ailə artıq dünəndən Laçında yerləşibdir və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcək. Beləliklə, birinci mərhələdə Laçında 4 minə yaxın, bəlkə də çox insan yaşayacaqdır.

Bütövlükdə 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Amma bu, hələ tam proqramımız deyil. Laçın şəhərinin Baş planı hazırlanıb və bu gün təqdim ediləcək. Laçın şəhərində ikinci mərhələdə görüləcək işlərlə bağlı bizim çox dəqiq təsəvvürümüz var və beləliklə, hesab edirəm ki, ilin sonuna qədər daha çox insan Laçında yaşaya biləcək.

Bununla paralel olaraq indi tibb məntəqəsi hazırlanır. Məktəb yeni dərs ili üçün hazır olacaq, bütün digər lazımi şərait yaradılır. Dünən mənə göstərilən təqdimatda gördüm ki, onlarla müəssisənin yaradılması nəzərdə tutulur. Artıq Aqro və Sənaye Parkı yaradılmaqdadır, 1100-dən çox iş yeri yaradılacaq. Yəni, burada həm yaşamaq, həm işləmək üçün bütün şərait yaradılır və gördüyünüz kimi, bu gün Laçın şəhəri dünyanın ən gözəl şəhərlərindən birinə çevrilibdir.

## Laçın-cənnətin təsviri...

Torpaq şərəf, namusdur. Azərbaycan xalqı müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə milli ordumuzun sayəsində tarixi torpaqlarına qovuşdu və illərlə üzünə vurulan "sizin də torpaqlarınız erməni işğalı altındadır" töhmətindən azad oldu. Eyni zamanda namus və şərəf məsələsini həll etdi.

Həqiqətən bir sərkərdə üçün xalqına itirdiyi torpağı azad edib qaytarmaqdan böyük xoşbəxtlik ola bilməz. Bu xoşbəxtlik Heydər Əliyev siyasətinin davamçısı, Ulu Öndərin siyasi və mənəvi varisi, ata vəsiyyətini böyük qətiyyətlə yerinə yetirən cənab İlham Əliyevə nəsib oldu. Tarix 1990-cı illərdə torpaqlarımızı satanları öz qara səhifələrinə yazdı. 2020-ci ildə həmin torpaqları böyük əzmlə geri alanları isə ən parlaq səhifələrinə əks etdirdi. Bundan böyük səadət ola bilməz ki, bir xalqın tarixində əbədiyyən yaşayasan.

Qədim Laçın və yurdun əzəli sakinləri bu gün yurdlarının azadlığı, bərpası və artıq Böyük Qayıdışa başladıqları üçün müzəffər Ali Baş Komandana minnətdardırlar. Onlar cənnət ata-baba torpaqlarının, doğma ev-eşiklərinin artıq əbədi sakinləridir.

Sakinlərlə görüşündə dövlətimizin başçısının daha bir dəyərli fikri isə Laçının gözəlliyini xarakterizə etdi: Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurlar ilə eyni səviyyədə olsun. Cənnətin təsviri Laçın hələ qarşıda bütün sakinlərini qarşıladıqca daha gözəl görünəcək. Çünki yurd yurddaşı ilə həqiqətən bir cənnətdir...

***Mətanət Məmmədova***

# Münaqişə və terrordan zərər çəkən uşaqlar

**4 İyun - Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günüdür. Bu gün dünya ictimaiyyəti münaqişələr və terrordan zərər çəkən uşaqların gününü qeyd edir. Bütün dövlətlər uşaqların müdafiəsi üçün mühüm təminatlar verən 1925-ci il Cenevrə protokoluna və 1949-cu il Cenevrə konvensiyalarına, insan hüquqlarına hörmət edilməsinə aid digər beynəlxalq hüquq aktlarına müvafiq öhdəliklərini tam yerinə yetirməli, müharibə edən tərəflərin hərbi əməliyyatlar zamanı uşaqlara qarşı törədilən bütün repressiya və qəddarlıq, insanlıqdan kənar davranış formaları cinayətkar hərəkətlər sayılır.**

1982-ci il avqustun 19-da BMT-nin Baş Assambleyası özünün Fələstin məsələsi üzrə xüsusi sessiyasında hər il iyunun 4-nü Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü kimi qeyd etməyi qərara almışdır.

Hərbi münaqişələr zonasında yaşayan uşaqlar - gələcəyi olmayan uşaqlardır. Bütün dünyada münaqişələr zamanı nə qədər uşağın həlak olması haqqında dəqiq statistika aparan yoxdur. Müharibələrdə yalnız əsgərlərin deyil, uşaqların da həlak olduğunu unutmamaq üçün BMT bu günü təsis etmişdir. Bu günün əsas məqsədi dünyanın fiziki zorakılığa, mənəvi-psixoloji və ruhi təsirə məruz qalan bütün uşaqların ağrılarını və əzablarını hiss etmək cəhdidir.



### BEYNƏLXALQ HÜQUQUN TƏLƏB VƏ TƏKİDLƏRİNƏ ZİDD ƏMƏLLƏR

Azərbaycanın da balaca uşaqları bu terrorların qurbanına cevrilib. Ermənistan Silahlı Qüvvələri tərəfindən 44 günlük müharibə dövründə amansız və aqressiv davranışlar özünü daha qabarıq büruzə verdi. Bütün dünya münaqişə zonasından kənarda, Azərbaycanın Naftalan, Ağcabədi, Gəncə və Bərdə şəhər və rayonlarında mülki əhaliyə qarşı ermənilərin terror hücumlarının yaxından şahidi oldu. Bu terror hadisələri nəticəsində 12 uşağın həyatını itirməsi, 50 uşağın isə xəsarət alması işğalçı Ermənistan Silahlı Qüvvələrinin əsl simasını bir daha ortaya qoydu.

44 günlük Vətən müharibəsində biz erməninin vəhşi simasını bir daha görmüş olduq. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük müharibədə Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasında xəbər vermirmi? Qocaya, cavana, uşağa qıyan erməni müharibə qanunlarını belə pozaraq çirkin niyyətləri ilə tarixən nəyə xidmət etdiklərini bir daha göstərdi. Ermənistan tərəfindən həyata keçirilən terror aktları və müharibə cinayətlərinə etinasızlıq göstərilmədi. Vicdanla öz vəzifə borclarını yerinə yetirənlər Azərbaycanın təmas xəttindən uzaqda yerləşən şəhərlərini raket atəşə tutmasını, nəticədə çox sayda mülki şəxsin həyatının itirməsinin şahidinə çevrildilər. Gəncədə yaşanılan matəm məgər erməni təcavüzkarlığının üzü deyildimi? Kim idi bunları törədən? İnsanlarda onların əməllərinə qarşı yaranan qəzəb və nifrət yaddaşlardan silinərmi? Bu tarixdir: erməninin terrorçuluq əməllərinin izi və tarixi.

### DÜNYA, İNSANLIQ FACİƏNİ NECƏ QƏBUL EDİR?



Gəncədə törədilən terror aktı daş yaddaşımıza həkk olunub. Gecə insanların evlərində yatdığı zaman raket atəşi nəticəsində dağılan yaşayış massivi və raket zərbəsindən məhv olmuş məhəllədə dağılan evlərin qalıqları hər zaman kino lenti kimi göz önündən keçir. Qanlı gecədə sakinlərin həyatını itirməsi, erməni terroristlərinin dinc əhaliyə qarşı törətdikləri cinayətlər sənədlərin dili ilə hər zaman danışacaq. Yatmış insanlara qarşı iyirmi birinci yüzillikdə törədilən terror insanlıq əleyhinə olan cinayətdir. Lənətlənmiş erməni əməllərinin izi Azərbaycan tarixinin hər səhifəsindən görünür. Bunu silmək, yox etmək qeyri-mümkündür. Erməni silahlı bölmələrinin oktyabrın 17-də gecə saatlarında Gəncə şəhərini raket atəşinə tutması nəticəsində Şahnəzərovlar ailəsinin yaşadığı faciə yaddan çıxarmı? Dağıntılar altından ailənin yalnız bir üzvü - 2017-ci il təvəllüdlü Xədicə Şahnəzərova sağ çıxarıldı. Azyaşlı qızın atası Röyal, anası Züleyxa və yaşyarımlıq bacısı Məryəm isə erməni terrorunun qurbanları oldu. Dünya, insanlıq bu faciəni necə qəbul edə bilər? Azyaşlıya qıyan, onu yetim qoyan, insanları şikəst, kor edən, əlil edən, bir ailənin faciəsini qətili olan erməni. O erməni ki, 2017-ci ilin iyul ayının 4-də Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutdu. Bu Ermənistan silahlı qüvvələri tərəfindən törədilən daha bir çirkin siyasətin nümunəsi oldu. Nəticədə, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular, digər mülki şəxs - 1965-ci il təvəllüdlü qadın Quliyeva Səlminaz ağır yaralandı və mülki obyektlər dağıdıldı. Təbii ki, mülki şəxslərin münaqişələrdə hədəfə alınması qəbuledilməzdir. 2 yaşlı azərbaycanlı Zəhra Quliyevanın cəbhə xəttində Ermənistanın işğalçı qüvvələri tərəfindən qətlə yetirilməsi dözülməz idi. Bu, bir daha Ermənistan ordusu tərəfindən Azərbaycan ərazilərində törədilən təcavüz və təxribat faktlarını, onların iyrənc siyasətini ortaya qoymuş oldu. Bu, Ermənistan silahlı qüvvələri tərəfindən törədilən növbəti vandalizm aktıdır. Bu hadisənin təmas xəttinin beş kilometrliyində baş verdiyi, qanlı cinayətin müharibə qaydalarının pozulması ilə törədilən mülki əhalinin qətli aktı olduğu, hədəfə alınan Alxanlı kəndinin təmas xəttindəki hərbi mövqelərdən uzaq məsafədə yerləşməsinin düşmən qüvvələrinin mülki obyekti məqsədyönlü şəkildə seçməsi sübut edildi. Bütün bunlar dünya ictimaiyyətinə çatdırıldı və dünyanın gözü qarşısında ermənilərin təcavüzkar siyasəti bir daha ifşa edildi.







### HƏR BİRİNİ XOŞBƏXT GƏLƏCƏK GÖZLƏYİRDİ

1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilər Vətən müharibəsinə qədər 30-dan artıq azərbaycanlı uşaq erməni terrorunun qurbanı oldu. Onlardan 13-ü həlak olub, 19-u isə yaralanıb. 2 yaşlı Zəhra Quliyeva da erməni vandalizminin qurbanına çevrildi. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozub.

Ermənilərin tarixən kim olduqları dünyaya sübut edilib. Axı, Azərbaycana gələn səyyahların, böyük yazıçıların, tarixçilərin onlarla bağlı yazdıqları sözləri unutmamışıq. Qəbirləri dağıdan, şumlayan, məsciddə donuz saxlayan vəhşidən nə gözləmək olar? Beynəlxalq tribunalardan onların əməllərinə qarşı hökm oxunmalıdır. Humanizm prinsipinə hörmətsizlik edən, beynəlxalq hüququn normalarını, qanunvericiliyi kobud şəkildə pozan Ermənistan rəhbərliyi bütün hərbi cinayətlərə görə cavab verməlidir. Artıq Azərbaycanın haqlı mövqeyi müdafiə olunur.

Terror qurbanı olan uşaqların işıqlı gələcək həyatları qabaqda idi. Hər birini xoşbəxt gələcək gözləyirdi. Erməni vəhşilərini müdafiə edənlər acı həqiqətlər qarşısında məsuliyyət daşıyırlar.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İşğaldan azad olunan ərazilərimizdə məktəb tikintisi



**Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Milli Ordumuzun Vətən Müharibəsində qələbəsi Zəfərimiz olaraq tarixə yazıldı. Azərbaycan artıq tamamilə yeni bir dövrə qədəm qoyub. Biz artıq işğaldan azad edilmiş torpaqlara qayıdırıq və həmin yerlərdə yeni bir həyat başlayıb.**

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal edilmiş ərazilərimiz dağıdılmış, tarixi dini mədəniyyət ocaqlarımız xarabazarlığa çevrilmişdir. İşğal altında yerləşən yaşayış evləri, təhsil, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı, yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalareyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi erməni vandalizminin qurbanına çevrilib. Bu gün 30 ilə yaxın işğal altında olan torpaqlarımızda abadlıq-quruculuq işləri vüsət alıb. Hazırda qarşıda dayanan ən mühüm vəzifələrdən biri də işğaldan azad olunan ərazilərdə təhsil ocaqlarının tikintisidir. İşğaldan azad edilmiş ərazilərdə təhsilin inkişafı ilə bağlı tədbirlər xüsusi əhəmiyyət kəsb edir.

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər şəhərində 960 şagird yerlik məktəb binasının təməlin qoyub. Əlbəttə ki, bu, işğaldan azad olunmuş ərazilərin bərpası prosesində müasir təhsil infrastrukturunun qurulmasına xüsusi diqqət yetirildiyinin əyani təzahürüdür. Kəlbəcərdə təməli qoyulan məktəb binası ən müasir standartlara uyğun inşa olunacaq. 41 sinifdən ibarət olacaq məktəb binasında fizika, kimya, biologiya, informatika kabinetləri, müxtəlif təyinatlı səkkiz laboratoriya, akt və idman zalları, yeməkxana və digər zəruri otaqlar yaradılacaq. Qeyd edək ki, Kəlbəcər rayonunda ilk məktəb 1924-cu ildə fəaliyyətə başlamışdır.

Kəlbəcər rayonu işğal edilməzdən əvvəl rayonda 96 ümum təhsil məktəbi, o cümlədən 46 tam orta, 42 ümumi orta, 8 ibtidai məktəb vardı. Bunlardan əlavə 1 texniki peşə məktəbi, 2 əyani-qiyabi məktəb, 8 məktəbdən kənar və 4 məktəbə qədər təhsil müəssisə də fəaliyyət göstərirdi. Kəlbəcər rayonunda Başlıbel kənd 600 yerlik, Zülfüqarlı kənd 820 yerlik, Yanşaq kəndində 850 yerlik ,Qılınçlı 420 yerlik, Kəlbəcər şəhər 1,2,3 nömrəli məktəblərdə hər biri 650 yerlik, İstisu qəsəbə 800 yerlik məktəb binaları da işğaldan əvvəl istifadəyə verilmişdir.

Kəlbəcər 189 nömrəli peşə məktəbi Goranboy rayonunda Qaraqoyunlu kəndində fəaliyyətini davam etdirir. Məzunların bir çoxu ayrı-ayrı şirkətlərdə, özəl və dövlət müəssisələrində peşələrinə uyğun iş tapıb işləyirlər. Əlbəttə ki, bu gün ümumtəhsil orta məktəblərlə yanaşı, müasir çağırışlara cavab olaraq peşə təhsili sisteminin müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Azərbaycanda peşə təhsilinin inkişaf etdirilməsi prioritet istiqamət kimi müəyyən olunub. Bu sahədə peşəkar tədris prosesinin qurulması, əmək bazarının, o cümlədən işəgötürənlərin tələbatlarına uyğun ixtisaslar üzrə kadr hazırlığının təmin olunması qarşıda duran əsas vəzifələrdən biridir. Son dövrlər paytaxt Bakı ilə yanaşı, bölgələrdə də yeni peşə təhsili müəssisələri qurulur. Prezident İlham Əliyevin 2016-cı il aprelin 20-də imzaladığı Fərmanla Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması ölkəmizdə peşə təhsilinin səmərəliliyinin artırılması və rəqabətqabiliyyətli ixtisaslı kadrların hazırlanması baxımından mühüm addım oldu. Daha sonra Təhsil Nazirliyinin tabeliyində Peşə Təhsilinin İnkişafı Fondunun yaradılması, peşə təhsili sahəsində bir sıra normativ hüquqi aktların qəbul olunması, peşə təhsili müəssisələrinin birləşdirilməsi və müəyyən ixtisaslaşmış peşə təhsili mərkəzlərinin yaradılması yolu ilə müasir standartlara cavab verən pilot peşə təhsili müəssisələrinin qurulması da Yol Xəritəsində qarşıya qoyulan mühüm vəzifələrdəndir.

Füzuli şəhərində Peşə Liseyinin təməlinin qoyulması da bu istiqamətdə həyata keçirilən layihələrdən biridir. Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin ərazisi 3,2 hektar sahəni əhatə edəcək. Kompleksdə tədris, laboratoriya təcrübələri, idman binaları və meydançası yaradılacaq. Burada, həmçinin avtomobil təmiri emalatxanası, avadanlıq və texnika, təsərrüfat anbarları, təsərrüfat qurğusu, praktik təlimlər qurğusu da inşa ediləcək. Kompleksin elektrik enerjisi ilə fasiləsiz təminatı üçün transformator yarımstansiyası da quraşdırılacaq. Füzuli şəhər Peşə Liseyinin inşası zamanı yaşıllıq zolaqlarının yaradılması xüsusilə diqqətdə saxlanılıb. Belə ki, yaşıllıq sahəsi bu kompleksin ərazisinin 43,7 faizini təşkil edəcək. Burada yaradılacaq idman meydançasının sahəsi 540 kvadratmetr olacaq.

Lisey ildə 800-yə yaxın tələbə qəbul etməklə yanaşı, 1000-dək tələbə üçün qısamüddətli kurslar və ömürboyu təhsil proqramları təmin etmək imkanında olacaq. Bu sahədə həyata keçirilən tədbirlər gənclərin müvafiq peşələrə yiyələnərək məşğulluğunun təmin olunmasına, eləcə də müəssisə və təşkilatların ixtisaslı kadrlarla təminatına əhəmiyyətli təsir göstərir.

Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qayıdışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib.

***Zümrüd BAYRAMOVA***




## Ərdoğanın yenidən prezident seçilməsinə şəhər sakinlərinin təəssüratları

Türkiyədə keçirilən prezident seçkilərinin ikinci turunda Rəcəb Tayyib Ərdoğan tam üstünlüklə qalib gələrək ölkənin 13-cü Prezidenti seçildi. Bu, Türkiyə ilə yanaşı, həm də Azərbaycanın siyasi qələbəsidir. Məlumdur ki, bir sıra siyasi dairələr və qruplar məhz bu qələbənin qazanılmasına mane olmaq üçün genişmiqyaslı planlar həyata keçirirdilər. Reallığı əks etdirməyən sorğuların təşkili, Azərbaycandan yan keçən layihələr və xarici qrupların maraqlarına xidmət edən şəxslərin bəyanatları məhz bu planların tərkib hissəsi idi. Bəs görək, paytaxt sakinləri mövzu ilə bağlı nə düşünür. SİA bu barədə sorğu keçirib.

**Paytaxt sakini Böyükağa Məmmədov:** "Rəcəb Tayyib Ərdoğan bizə daha əvvəl də Qarabağ məsələsində siyasi və mənəvi dəstəyini verirdi. Təbii ki, bizə qardaş qayğısıyla yanaşan bir liderə qarşı pis fikirdə ola bilmərəm. Düşünürəm ki, bundan sonra da Ərdoğan Azərbaycana dəstək olmağa, eyni yolu getməyə davam edəcək. Andiçmə mərasimində o, Paşinyanı arxada oturtdu. Çünki onun layiq olduğu yer məhz arxaydı. Həmişə o cür qondarma dövlətlərin yeri "arxada" olacaq. Onların heç vaxt qabaqda yeri yoxdur. Prezident İlham Əliyev Ərdoğana daim qardaşı kimi yanaşıb. Biz də vətəndaşlar olaraq onu öz qardaşımız kimi görürük".

**Paytaxt sakini İqbal Məmmədli:** "Türkiyədə son seçkilərdən sonra hökumət tərkibində dəyişikliklər olunub. Düşünürəm ki, bu dəyişiklik qardaş ölkənin iqtisadiyyatına müsbət təsir edəcək. Türkiyə hər zaman Azərbaycanın arxasında olub. Bundan sonra da belə davam edəcəyini düşünürəm. Seçkilərdə Rəcəb Tayyib Ərdoğandan başqası da seçilsəydi, yenə də Azərbaycan və Türkiyə münasibətlərinin zərər görəcəyini düşünmürəm".

**Paytaxt sakini Tamara Nəsirova:** "Deyərdim ki, Atatürkdən sonra Türkiyənin yetişdirdiyi ən böyük siyasi xadim məhz Ərdoğandır. Ərdoğan çox alicənab və xalqını sevən adamdır. O, bütün millətlərə, xüsusən türk millətlərinə çox böyük qayğıyla, mehribanlıqla yanaşır, onları sevir. Bizim damarlarımızda xalis türk qanı axır. İnşallah Ərdoğanın bu beş il ərzində heç bir dərdi olmaz. Bütün yolunu azan dünya liderlərinə siyasət dərsi keçər".

**Paytaxt sakini İsmayıl Qarayev:** "Ərdoğanın təkrar prezident seçilməsi bizim üçün çox müsbət haldır. O, dünya dövlətləri ilə münasibətlərində daha çox Azərbaycanyönümlü siyasət yürüdür. Onun yürütdüyü siyasət bizim ölkənin də maraqlarına uyğun gəlir. Düşünürəm ki, seçkinin nəticəsi başqa cür olsaydı bizim münasibətlər irəliyə yox, geriyə gedəcəkdi. Bizə bu cür doğma, yaxın, qardaş münasibəti göstərən bir prezidenti bəyənməyə bilmərik".

**Paytaxt sakini Rəvan Nağıyev:** "Kılıçdaroğlu çıxışında göstərdiyi layihəyə Azərbaycanı daxil etməmişdi. Bu da onu göstərir ki, Kılıçdaroğlu anti-Azərbaycan siyasəti yürüdür. Ona görə də Ərdoğanın seçilməsi Türkiyə üçün olduğu kimi, Azərbaycan üçün də çox müsbət haldır. Ərdoğan bizim Prezidenti öz doğma qardaşı kimi görür. Bizimlə olan münasibətlərdə də, atdığı addımlarda da bunu müşahidə edirik".

**Paytaxt sakini Xalidə Şirinova:** "Düşünürəm ki, hər şey yaxşı olacaq. Çünki Rəcəb Tayyib Ərdoğan siyasi kimliyindən əlavə olaraq çox yaxşı insandır. Andiçmə mərasimində bizim Prezidentimizi yanında oturdub, Paşinyanı da onun arxasında oturtmağı çox gözəl bir mesaj oldu. Mən Ərdoğana uzun ömür, cansağlığı arzulayıram. Allah onu türk xalqının başından əksik etməsin. İnanıram ki, əlaqələrimiz daim belə gözəl və möhkəm qalacaq".

***Fazil Mehdixanlı***

# İsti iyunun soyuqlu-Müşfiqli günləri

*PUBLİSİSTİK DÜŞÜNCƏLƏR*



***Deyirlər, şair olmaq heç də asan deyil. Fərqli yaradılmalısan. Bir küçədən, bir dalandan keçəndə, bir bağa yolun düşəndə sübhün şehini yarpaqlar üzərində görməyi bacarmalısan. Payızın xəzəlinin pıçıltısını duymalısan. Qisməti, taleyi ayaqlar altında xışıltı nəğməsi oxumaq olan yarpaqlarla danışmalısan. Bir bağın gülünün, çiçəyinin bəzən qönçəsi, bəzən günəşə boylanan tam açmış gözəli, bəzən solub kolların altına tökülən ömrü bitmiş ləçəyi olmalısan...***

Şair olmaq asan deyil... Onların ürəyi tam başqa olur. Gözləri tam başqa baxır, beyinləri tam başqa çalışır. Bir söz eşidəndə qulaqlarından birbaşa qəlblərinə axır, oradakı ələkdən keçib ya sözə çevrilib kağızlar üzərinə səpələnir, ya da ruha çöküb oradaca qalır, saçları ağardır... Onlar baxdıqlarını həm də görəndirlər. Təbiətin bir gözəlliyinə, bir qəribəliyinə, küçədəki bir gözələ, xiyabandakı bir ağaca, çiçəyə, şəhərdəki minlərlə insana hamı baxır, lakin görmək bir ayrıdır, yanaşmalar, hiss edilənlər və bir də ən əsası duyğular tam başqadır... 115 il əvvəl dünyaya gözlərini açan, bəhs etdiyim bu duyğuların hər biri anadangəlmə qanına, canına hopan bir Müşfiq vardı. Ətrafa qəlbinin gözləri ilə baxan, ürəyi Vətəninə, anasına, sevdiyinə və ümumilikdə gördüyü hər nələrəsə qəribə bir məhəbbətlə dolu Müşfiq... Bu dünyadan cəmi 29 il, 8 ay qoparıb ona baxmağı bacaran, sevgisi yarımçıq, ömrü yarımçıq Müşfiq... Heç Dilbərindən doymayan, sevgilisinə illərini verə bilməyən Müşfiq... Dünyanın ən gözəl ətrini-övlad ətrini çiyərlərinə çəkib gözlərini yumaraq nəfəsini buraxdığı an qədər onun sahibi olan, gözlərini açdığı an əllərindən axıb gedən bala həsrətli Müşfiq...

### Ömrün 5 iyunu...

İl dolana, iyun gələ...Necə anmayasan bu şairi ki, iyunlu günlər qısa ömrünün tarixçəsində xronika təşkil edir. İyun gələ, necə anmayasan Mikayıl Müşfiqi ki, 115 il əvvəlki iyunun 5-də dünyaya göz açmışdır. Cəmi bir qərinəyə yaxın ömrünün silinməz izlərini bu xalqın ədəbiyyat tarixinə möhürləmişdir. Ən gözəl təbiət, sevgi nəğmələrini bizə qoyub getmişdir. O nəğmələr ki, o gün bu gün milyonlarla gəncin sevgi nəğmələridir. Məktublarda, ismarıclarda sevgi mesajlarıdır. Yəni sevənin sevdiyinə sevgisini o şeirlərdən gözəl anladanı varmı? Çünki o şeirlər bütün gənclərin sevdiyi yaşda yazılmışdı. Çılğınlıqla, sevginin gözlərini yumub, qəlbin gözlərini açmaqla, yalnız bu gözlərin gördüyü, hiss etdiyi duyğularla yazılmışdı:

Göy üzünə bircə bax, hər ulduz bir sarı gül,
Yarı qönçə, yarı gül.
Səni gördüm, xəyalım o qədər yüksəldi ki,
Mənə öylə gəldi ki,
Bizə bu nazlı aləm görünərdi qaranlıq,
Gözəl çarpışmasaydıq, gözəl yaşamasaydıq.

Axı sevdiyi insanın hər anı xoş gəlir insana. Düşünürsən ki, o gülüş, o yeriş, o cizgilər ondan başqa heç kimdə belə gözəl deyildir. Elə Müşfiq də belə düşünüb, belə yazırdı:

Sənin gülüşlərin bir ruzgar kimi
Əsərkən arzumun gülü açılır.
Gülsə dodaqların ulduzlar kimi
Ruhuma bir sərin işıq saçılır.

Sevgi oxşayır sevənin ruhunu, alır onu özündən, yerdəmi, göydəmi olduğunu hiss etmir. Bəzən araya inciklik düşər, sevənə bu an rüzgar kimi gələr, bəzən ayrılıq düşər, sevənə bu qar kimi gələr, lakin bütün bunların fövqündə dəruni bir hiss var, adı sevməkdir. Uzaqları yaxın, inciklikləri şirin edən, hər halı ilə sevgini dərinləşdirən, qəlbi dindirən sevgi. Müşfiqin sevgisi:

Sevgi vardır ki, dodaqlarda açar güllərini,
Sevgi vardır ki, bir az qar kimi, rüzgar kimidir.
Sevgi vardır oxudur qəlbdə bülbüllərini,
Böylə bir sevgi mənim ruhumu oxşar kimidir.

Günlərin bir günü sevdaya düşəndə necə Müşfiqi anmayasan?

Mən ki, bilməz idim nədir məhəbbət.
Bu sirri sən mənə anlatmadınmı?
Dünyaya sığmayan şair könlümü
Köksümdən çıxarıb oynatmadınmı?

Və milyonlarla gəncin verdiyi qərar da elə şairin verdiyi qərar kimi olur:

Mehriban sevgilim qarşımda durdu,
Yenə şairliyim başıma vurdu,
Məndən məcnun könül maraqla sordu:
-Bu saçı leyladan necə əl çəkim?

İyun gələ, necə anmayasan şairi ki, açıq pəncərələrdən bayıra süzülən tarın nəğməsidir o. Bir tarın susmamasıyla bir xalqın susmamasına, hüriyyətinə çağırış səsidir:

Oxu, tar!..
Utanma, oxu, tar!
Mədənli Bakımın,
Pambıqlı Gəncəmin,
İpəkli Şəkinin
Acısı, şərbəti,
Alovlu sənəti!

İyun gələ, bağ vaxtı ola, necə anmayasan şairi ki:

Yenə o bağ olaydı, yenə yığışaraq siz,
O bağa köçəydiniz.
Biz də muradımızca fələkdən kam alaydıq,
Sizə qonşu olaydıq.
Yenə o bağ olaydı, səni tez-tez görəydim.
Qələmə söz verəydim.
Hər gün bir yeni nəğmə, hər gün bir yeni ilham,
Yazaydım səhər-axşam.
Arzuya bax, sevgilim, tellərindən incəmi?
Söylə, ürəyincəmi?-, deyirdi, hisslərini, duyğularını misralara köçürməklə yaşayırdı.

### Ömrün 4 iyunu

Müşfiq haqqında çox əsərlər, monoqrafiyalar, məqalələr yazılıb. Həyatı, fəaliyyəti ayrı-ayrılıqda təhlil olunub. Araşdırmalar aparılıb, ailəsi, həyat yoldaşı, dostları, düşmənləri üzə çıxarılıb və bunların hər biri barədə də dəfələrlə oxumuşuq. Ona görə də bu yazını şairdən 85 illik ayrılıq kəsiyində onun həyatındakı iyunlar üzərində qurmağa çalışdım. Çünki şairlə bağlı diqqətimi çəkən ən çox bu iyunlar oldu. Bir alnığa bir alın yazısı qarşısında düşüncələrə daldım. Bir insanın dünyaya gəlişi də, paxıllığın qurbanı olması da, dünyaya gözlərini yummasına gedən yol -hamısı eyni ayamı yazılıbmış?..

ARAYIŞ. NKVD-nin 27 may 1937-ci ildə təhlükəsizlik kapitanı Çinmanın tərtib etdiyi arayışda qeyd olunmuşdu: "Mikayıl Müşfiq hal-hazırda "Müsavat" gənclər təşkilatı ilə əlaqə saxlayıb, partiya və hökumətin ünvanına böhtanlar deməkdən çəkinmir" .

Bundan əlavə arayışda Müşfiqin "Azərbaycanın öz azadlığı yoxdur, o, Rusiyanın koloniyasında yaşayır" kimi qızışdırıcı sözləri ilə xalqın arasında narazılıq yaratmaq istəyi iddia olunurdu. Həbs olunmuş müttəhimlərin "könüllü" surətdə yazdığı izahatlar da nəzərə alınmış və müstəntiq tərəfindən hazırlanan həmin arayışa əsasən Mikayıl Müşfiqin adına iyunun 3-də 508 nömrəli order yazılmış, cümə günü, iyun ayının 4-də isə evində həbs edilmişdi.

Hüseyn Cavid, Əhməd Cavadla eyni fikirli, eyni ruhlu gənc şair, bəli, Azərbaycanın hüriyyəti, azadlığı üçün mübarizə aparanlardan idi. Üsyankar şair "Azərbaycanın öz azadlığı yoxdur, o, Rusiyanın koloniyasında yaşayır" sözlərini demişdi. Stalini, Lenini, sovet quruluşunu mədh edən əsərlər də yazmışdı. Lakin bu əsərlər sadəcə gözdən pərdə asıb arxasında xalqının istəklərini həyata keçirmək üçün Müşfiqin həmin quruluşa nifrətinin məhsulları idi. Bütün bunlar isə kənardan açıqca görünürdü. Və şairin ətrafındakı paxılların satqınlığı onun gənc ömrünün baharını qışa çevirməkdəydi. Özünün də dediyi kimi:

Mən gəncəm bilirəm istiqbalım var,
Hələ bədr olmamış bir hilalım var.
Yelkənim açılır, qara yel əsmə,
Mənim bu dəryada bir sandalım var!

Bir külək əsirdi şairə sarı. Qorxulu bir külək. Qoparıb onu elindən, Dilbərindən, qələmindən, dostundan aparmaq istəyirdi. Apardı da. Şairin "Küləklər"i kimi:

Bəziniz qorxulu, bəziniz qorxusuz,
Bəziniz duyğulu, bəziniz duyğusuz,
Bəziniz uyqulu, bəziniz uyqusuz,
Küləklər, küləklər, ey sərin küləklər,
Sizdə var qoxusu hər yerin, küləklər!

### Yeni bir 5 iyun-şairin son doğum günü

1937-ci il iyunun 5-də şairin 29-cu doğum günündə ilk istintaq keçirilir. Bu, şairin son doğum günü olur. Günahsızlar kürsüsündə müttəhim kimi doğum gününü qarşılayan şairin. Və 5 iyun istintaqı özündən sonrakı bir neçə istintaqla şairi 30 yaşa çatdırmayacaq bir nöqtəni qoyacaqdı. Müşfiqin nakam ömrünün nöqtəsini. Bu nöqtə repressiyanın yüzlərlə qurbanı üçün qoyulsa da, həm də ədalətsizliyə xitam nöqtəsi idi. Odur ki, bu dünyanın Müşfiq kimi ədalətli insanları hər zaman özünün də yazdığı kimi gözəl xatırlanacaqlar:

Məni gözəl xatırla,
Bunlar son misralar
Fərz et ki, bir külək idim, əsib keçdim həyatından
Ya da bir yağmur, sel oldum çöllərdə
Sonra torpaq çəkdi suyu canına
Yox olub getdim, bəlkə röya idim səninçün
Oyandın və mən bitdim.

Lakin bir müşfiqsevər kimi ondan söz düşəndə də, iyun ayı gələndə də şairi ən dərin hisslərlə xatırlasam da, bir də onu öz-özümə pıçıldayıram ki, isti iyun günləri bir insanın həyatının bu qədərmi şaxtasına, soyuğuna çevrilə bilərmiş?..

***Mətanət Məmmədova***



## "Ermənistan sülh müqaviləsi imzalamağa hazır deyil"

"2020-ci ilin 44 günlük Vətən müharibəsi ilə Azərbaycan Ermənistanı darmadağın etdi və düşmənin işğalçı ordusunu tarixi torpaqlarımızdan çıxartdı. Bu gün qürur mənbəyimiz olan üçrəngli bayrağımız o torpaqlarda şərəflə dalğalanır. Ermənistan 44 günlük müharibədən sonra anlamır ki, Azərbaycanın uğurlarının qarşısını heç kim ala bilməz. Həmin müharibə dövründə dünyanın nüfuzlu təşkilatları da, ermənipərəst dövlətlər də Azərbaycanın haqq məsələsi ilə bağlı xeyli təzyiq və təhdid etdilər. Amma onların hamısı boş şeydir. Çünki Azərbaycan ədalət üçün öz tarixi torpaqlarında vuruşdu və qalib oldu". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Anar İsgəndərov deyib.

Onun sözlərinə görə, bundan sonra isə sülh müqaviləsi ilə bağlı Azərbaycanın dövlət başçısı birmənalı olaraq dünyaya, o cümlədən, Ermənistana bəyanat verib: "Azərbaycan Ermənistanla sülh müqaviləsi imzalamaq üçün ilk gündən beş şərtini irəli sürüb. Bu şərtlərin hər biri həm Azərbaycanın, həm də Ermənistanın maraqlarına uyğundur. Amma Ermənistan hər dəfə nəyisə bəhanə edərək sülh müqaviləsinin bağlanmasını uzadır. Bunlar onu göstərir ki, Ermənistan sülh müqaviləsini imzalamağa hazır deyil və nəyisə gözləyir. Azərbaycan tərəfi üçün müqavilə imzalansa daha yaxşı, amma imzalanmasa belə bizim itirəcəyimiz heç nə yoxdur. Azərbaycan güclü orduya, müasir silahlara, xalq və iqtidar birliyinə, ən əsası isə "dəmir yumruğ"a malikdir".

Deputat sözlərinə davam edərək bildirib ki, ölkə başçısı İlham Əliyev də gecə-gündüz işğaldan azad olmuş torpaqlarda xariqələr yaradır: "Ona görə ki xalq 30 il ərzində əzab-əziyyət görüb, artıq onun əvəzində azad və gözəl torpaqlarımızı görsün. Bunun üçün azad olmuş torpaqlarımızda quruculuq işləri davam edir.

Azərbaycan Prezidenti, Ermənistan Baş Naziri, Avropa Şurasının prezidenti, Fransa və Almaniya dövlət başçılarının iştirak etdiyi Moldovadakı görüş onu göstərir ki, Qərb Ermənistanı müdafiə etmək iqtidarında deyil. Azərbaycan dövlətinin dünyaya mesajı məlumdur. Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşıdır. Əgər onlar Azərbaycan qanunları ilə yaşamaq istəyirlərsə, yaşasınlar. Çünki Azərbaycan demokratik bir dövlətdir. Amma əgər onlar separatçılıqla məşğul olacaqsa, onda bu torpaqlarda yaşamaq haqları yoxdur. Bu halda onlar demokratik bir dövlətin qanunları ilə müzakirə olunacaqlar. Azərbaycanın dövlət başçısı laçında bir daha bütün dünyaya bəyan etdi ki, dövlətimizin məramı bundan ibarətdir və hamı tərəfindən qəbul olunmalıdır".

***Ləman Əlizadə***

# Erməni terroru bəşəriyyətin təhlükəsizliyinə təhdid yaradır

Erməni vəhşiliyi, qəddarlığı yüz illər keçsə də, Azərbaycan xalqının yaddaşından silinməyəcək. Ola bilsin ki, diz üstə olan Ermənistan ayaqda qalmaq üçün Azərbaycanla sülh müqaviləsi imzalasın. Ola bilər ki, ermənilər xaraktercə satqın və xəyanətkar millət olduqlarından yaşamaq üçün millətimizə yarınsınlar, lakin onlara üz vermək, yaxına buraxmaq əsla olmaz. Tarixin müxtəlif dövrlərində ermənilərin millətimizə qarşı törətdiyi terror və soyqırımı siyasətini unutmaq keşmişin səhvlərindən nəticə çıxarmamaq, gələciyinə şübhə ilə baxmaq deməkdir. Son iki yüz ildə erməni vəhşiliyi nəticəsində iki milyondan çox azərbaycanlı öldürülüb, yüz minlərlə insan şikəs edilib, evi-eşiyi dağıdılıb, yurd-yuvası viran olunub. 1905-1906-cı illərdə, habelə 1918-1920-ci illərdə İrəvanda, Dərələyəzdə, Zəngəzurda, Göyçədə, Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Muğanda və digər ərazilərimizdə dinc əhalimiz soyqırıma məruz qalıb. Yüz minlərlə soydaşımız vəhşicəsinə qətlə yetirilib, olmazın Bakı hadisələri ilə, demək olar ki, eyni vaxtda Şamaxıda da azərbaycanlıların soyqırımı baş vermişdi. Şamaxı əhalisinin yatmasından istifadə edən erməni terror dəstələri şəhərin artilleriya atəşinə tutulması ilə başlayan silahlı hücumdan və ardınca törədilən yanğınlar, dağıntılar və azərbaycanlı dinc əhaliyə qarşı dəhşətli qəddarlıqlardan sonra Şamaxı külə çevrilmişdi. Ermənilər tərəfindən Şamaxı Cümə Məscidinə doldurulan dinc insan od vurularaq yandırılır. Yazılı mənbələrə görə, məsciddə yanan insanların ah-naləsi göylərə yüksəlib, yüzlərlə metr aralıdan qışqırıq, fəryad sələri eşidilib. Bu qırğınlar zamanı 12 min şamaxılı öldrülüb, yaralanıb, ev-eşiyindən məhrum olunub. Ümumilikdə 1918-ci ilin mart-iyul aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda, Göyçayda erməni mütəşəkkil silahlı dəstələri 150 mindən çox azərbaycanlını qətlə yetirmişlər. Şamaxının 110 kəndi, Qubanın 167 kəndi, Qarabağın 150-dən çox kəndi, Qars vilayətinin 98 kəndi, tarixi Azərbaycan şəhəri olan İrəvan şəhərinin 199 kəndi yerlə-yeksan edilmiş, 132 min azərbaycanlı məhv edilmişdir.




### Beynəlxalq birlik erməni vəhşiliyinə susur

1905-1906-cı illərdə Bakıda, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Gəncədə və Cənubi Azərbaycanda bu qırğınlar davam etmişdir. Erməni daşnaq quldur dəstələri 1905-ci il noyabrın 28-də Qarabağ bölgəsinin şəhər və kəndlərini yandıraraq, uşaqlara, qadınlara və qocalara qarşı görünməmiş vəhşiliklər törətmişlər. Erməni quldur dəstələri yalnız Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında 75-ə qədər Azərbaycan kəndini, İrəvan və Zəngəzur quberniyalarında isə 200-dən çox yaşayış məntəqəsini dağıtmış əhalini vəhşicəsinə qətlə yetirmişlər. 1905-ci il fevralın 5-də erməni terrorçu dəstələri Bakı qəzası Sabunçu kəndinin sakini Ağarza Babayevi öldürmüşlər. Qətl iğtişaş yaratmaq məqsədilə törədilmişdir. Elə həmin gün erməni quldur dəstələri realnı və texniki məktəblərin 7-ci sinif şagirdləri Yakov Lebedivi və İvan Volkovu öldürmüşlər. Erməni alimi C.Libardyanın yazdığına görə, üç il ərzində (1904-1906-cı illər) erməni terrorçuları 105 "siyasi qətl" törətmişlər. Bunların 56-sı ermənilərə qarşı, 32-si siyasi bəhanələrlə həm ruslara, həm də türk məmurlarına və zabitlərinə qarşı, 2-3-ü təsadüfən heç bir səbəb olmadan, qalanları isə bankirlərə və sələmçilərə qarşı olmuşdur. Alimlər Libardyanın göstərdiyi rəqəmləri araşdıraraq yazmışlar: "Bu qısa üçillik dövrdə erməni terrorçuları tərəfindən öldürülmüş, erməni mənşəli hər iki adamla yanaşı, bir qeyri-erməni mənşəli şəxs də öldürülmüşdür. Məqsəd dəyişməyibdir: dinc ermənilərin böyük əksəriyyətini qəsdən qorxutmaq, onları terrorçuların fəaliyyətini təsviq etmək məcburiyyətində qoymaq". 1905-ci ilin fevralın 6-da Bakıda Mixaylov xəstəxanasının sənədlərinə görə, erməni milyonçuları Balabek Lalayevin, Artyom Babayantsın, İsay Ter Osipovun və başqa maqnatların havadarlığı sayəsində terror qrupu 18 adamı öldürmüş və 33 nəfəri yaralamışdır. Onların 34-ü azərbaycanlı, 6-sı rus, 6-sı erməni, 5-i isə başqa millətin nümayəndələridir.




### Erməni terror təşkilatı Bakıda yüzlərlə insanın həyatına son qoyan qırğınlar törətmişlər

1905-ci ilin fevralın 7-də erməni terror təşkilatı Bakıda yüzlərlə insanın həyatına son qoyan qırğınlar törətmişlər. Erməni dəstələri kütləvi qırğınlar törətdikdən sonra varlı ermənilərdən olan Balabekin, Lalayevin, Artyom Babayantsın, Akop Muradyanın, Karen Saakyantsın və digərlərinin evlərinə yığışmış, onların pəncərələrindən və damlarından şəhərin küçələrinə atəş açmış, ingilis, fransız istehsalı olan bombalar, qumbaralar atmışlar. 1905-ci ilin qırğınları tarixə Bakı şəhərində qanlı qətliam kimi düşmüşdür. "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının idarə etdiyi quldur dəstələri 1905-ci ilin 20-21 fevralında İrəvan şəhərinin müsəlman sakinlərinə qarşı insanlığa yaraşmayan hərəkətlər edərək qırğınlar, vəhşiliklər etmişlər. Dinc əhalinin vəhşicəsinə öldürülməsi bu amansız hadisənin şahidlərini dəhşətə gətirmişdir. Ümummilli Liderimiz Heydər Əliyev bu hadisələrə belə qiymət vermişdir: "Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırırlar. Böyük humanist ideallara xidmət edən Azərbaycan Ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradır".

1905-ci il mayın 11-də Bakı şəhərində erməni terrorçuları Qafqaz xalqları arasında dostluq əlaqələri ruhunda çıxış edən knyaz M.A.Nakaşidzeni və Q.Takiyeskilini qətlə yetirildi. Bu hadisəni şahid R.R.Subinski öz xatirələrində göstərmişdir. O dövrün məlumatlarına əsasən, qatillərdən biri Dro ləqəbli Drastamat Xanayan idi. Bu hadisələrdən əvvəl Dro Zəngəzur mahalında erməni quldur dəstələrinin tərkibində dinc əhaliyə-türklərə, kürdlərə, azərbaycanlılara qarşı qanlı qırğınlarda yaxından iştirak etmişdi. Erməni daşnak quldarları 1905-ci ilin mayın 24-də İrəvan quberniyasında dinc azərbaycanlılara atəş açdılar. Qarışılıqdan istifadə erməni saqqallıları on bir vətəndaş-dörd qadın, iki uşaq və beş kişini qətlə yetirdilər. Bu qanlı hadisələrdən doymayan erməni quldur dəstələri 1905-ci ilin mayında Naxçıvan torpağına hücum edərək dinc əhaliyə qarşı qanlı divan törətdilər. Çoxlu sayda qadın, qoca və uşağı öldürdülər. Ermənilər 1905-ci ildə Zəngəzur bölgəsində də onlarca adam öldürülmüş, evlərə od vuraraq yandırmışlar. Bütün silah növləri ilə təmin olunmuş erməni quldur dəstələri 1905-ci ilin 2 iyununda Mənkus müsəlman kəndinə hücum etmişlər. Silahsız kəndlilər ailələrini götürüb qaçmağa məcbur olmuşlar. Kənddə qoca və əlil olan 80 yaşlı bir sakin erməni quldurlarının əlinə keçmişdir. Erməni quldurları şişləri qızdıraraq işgəncələr verməklə onu öldürmüşlər. Erməni daşnaq dəstələri 1905-ci il iyunun 8-də İrəvan yaxınlığındakı Eçmiədzin qəzasındakı Uşu azərbaycanlı kəndini mühasirəyə almış, buranı işğal etdikdən sonra kişilərin başlarını kəsmiş, südəmər uşaqları süngülərə keçirmişlər. Bu basqın zamanı kəndin məscidi yandırılmışdır. Ermənilər səhərisi Eçmiədzin qəzasındakı Persi, Nazzevan, Kiçik kənd, Kötüklü, Qoşabulaq və İrgu azərbaycanlı kəndlərini də yandırmış, məscidlərə od vurmuş və insanlığa yaraşmayan hərəkətlər edərək murdarlamışlar. Erməni daşnaq dəstələri öz çirkin əməllərindən əl çəkməyərək 1905-ci ilin avqustun sonlarına yaxın Bakı əhalisinə qarşı dəhşətli qırğınlar törətdilər.

### Ermənilər minlərlə azərbaycanlını qətlə yetirmişlər



1905-ci ilin avqustun 8-də 300-dən çox erməni daşnakı Şuşa qəzasının Vənd kəndinin karvan dəstələrinə hücum etdilər. Çoxlu tacir öldürüldü, əmlakçıları talan edildi. Kəndin sakini Abbas bəyin oğlunu, qardaşını və bir neçə nökər-naibini qətlə yetirdilər. Onların törətdikləri qanlı qırğınlarının məqsədi və yerli əhalini Şuşanı və Qarabağın dağlıq hissəsinin digər ərazilərini tərk etməyə məcbur etmək idi. Ermənilərin piyada və süvari dəstələri 1905-ci ilin oktyabrın 3-də Azərbaycanın Sırxavənd müsəlman kəndinə hücum təşkil etdilər. Dəstəyə quldur terrorçu Hamazasp başçılıq edirdi. Kənd az vaxt içində insan meyitləri ilə doldu. Uşaqları bir yerə yığaraq kütləvi halda öldürdülər. Erməni terrorçu dəstələri 1905-ci il noyabrın 21-də Tiflis əhalisinə qanlı və amansız divan tutaraq onları vəhşicəsinə qətlə yetirmişlər. Qırğında çoxlu sayda azəri türklərini də işgəncələrlə öldürmüşlər. 1906-cı ilin yanvarın 1-dən erməni daşnak dəstələri azərbaycanlı kəndi Papravəndə hücuma keçdilər. Kənd işğal olundu, qılıncla yarıldı, hələ dünyaya gəlməmiş körpələrin başlarını vurdular. Qırğına erməni quldur, qulağı kəsik Andranik Ozanyan başçılıq edirdi. Hələ əsrin əvvəllərində Rusiyanın Ərzurumdakı konsulu general Q.Mayevski onun haqqında yazmışdı: "1901-ci il qışın əvvəllərində Andranik adlı birisinin erməni quldur dəstəsi Muş həndəvərində peyda olmuşdur".1906-cı il iyulun 12-də erməni quldur dəstələri yaxınlığındakı erməni kəndlərindən 10 min nəfərə yaxın dəstə ilə Şuşa üzərinə hücuma keçdilər. Ərazidə döyüşlər beş gün davam etdi. Bütün evlərə bombalar yağdırıldı. Südəmər körpələri beşiklə birlikdə yandırır, anaların başını daşa çırpırdılar. 1905-1906-cı illərdə erməni bandaları Qarabağın yüzlərlə kəndini yerlə-yeksan etmişdilər. Bu dəstələr 1906-cı il iyulun 29-da azərbaycanlıların Karxana kəndinə hücum etdilər. Silahsız kəndlilər ermənilərə müqavimət göstərə bilmədilər. Kəndin bütün kişiləri erməni vandalları tərəfindən öldürüldü. Qaçıb təpəliklər arxasında gizlənmiş 30 qadın və uşağın yerini ermənilər dərhal müəyyən etmişlər. Buna səbəb gənc ana Pakizənin uşağının ağlaması olmuşdur. Hətta tarix bu körpə qızın adını da saxlamışdır-Firuzə. Qadınlar və uşaqlara da aman verməyərək onları qəddarcasına qətlə yetirmişlər.

### Köçürülmə toplum olduqlarını ermənilərin özləri də təsdiq edirlər

Tarixi mənbələrə və mövcud sənədlərə istinadən demək olar ki, erməni toplumu bu bölgəyə köçürülmədir. Hətta köçürülmə sayının çox olmasına baxmayaraq heç zaman say tərkibinə görə, ermənilər azərbaycanlılardan çox olmayıb. 1828-ci ildə İrəvan və Naxçıvan xanlıqlarına məxsus torpaqlarda yeni inzibati-bölgü-erməni vilayəti təşkil edilərkən bu ərazidə mövcud 1111 yaşayış məntəqəsindən cəmi 62-si erməni kəndi olmuşdur. Həmin illərdə dağıdılmış, 359 azərbaycanlı kəndinin əhalisinin çox hissəsi öldürülmüş, qalanları isə təqiblərə və milli ayrı-seçkilik siyasətinə məruz qalaraq İran və Türkiyə torpaqlarına qaçmağa məcbur olmuşlar. XX əsrin əvvəllərində xarici ölkələrdən köçürülən ermənilərin sayının bir milyona çatması bölgədə demokratik vəziyyətin tamamilə dəyişməsinə səbəb olmuşdur. Erməni daşnak millətçilərinin "böyük Ermənistan" ideyasını həyata keçirmələri ilə bağlı təbliğatları Qafqaz bölgəsini milli qırğınlara gətirib çıxarmışdır. XVIII əsrin birinci yarısında İrəvanın 65 yaşayış məntəqəsində müsəlmanlar, 4 məntəqəsində isə ermənilər yaşayırdılar. Məhəmmədzadə Mirzəbala yazır ki, I Dünya müharibəsindən öncə bütün dünyada mövcud 3 milyon ermənidən 1 milyon 100 min nəfəri Qafqazda, 100 min nəfəri İranda, 400 min nəfəri Türkiyədə sakin idi. 1988-ci ildən erməni silahlı birləşmələrinin Qarabağa soxulması və sonrakı illərdə Azərbaycan torpaqlarının 20 min kvadrat kilometr ərazisini işğal etməsi, 1 milyondan çox azərbaycanlının qaçqın düşməsi, on minlərlə soydaşımızın öldürülməsi, Xocalının yerlə-yeksan edilməsi bizdən keçmişə diqqət yetirməyi, səhvləri təkrar etməməyi, unutqanlığı birdəfəlik yaddan çıxarmağı tələb edir. Bütün ədalətsizliklərə və dünyanın bəzi ölkələrinin ikili yanaşmalarına baxmayaraq, Azərbaycan Ordusu Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 30 illik işğala son qoydu. Bu gün Qarabağ, ətraf rayonlar, şəhər və kəndlər rahat nəfəs alır. Keçmiş qaçqın və məcburi köçkünlər öz yurd və yuvalarına qayıdırlar. Bu qayıdış əbədidir. Artıq bundan sonra heç bir qüvvə o insanları doğma yurdundan tərpədə bilməz. Çünki Azərbaycanın bu günü kimi sabahı da işıqlıdır. Ulu Öndər Heydər Əliyevin qurduğu Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmlənib və regionun ən güclü və qüdrətli dövlətinə çevrilib.

**İ.ƏLİYEV**

# İyun qiyamı: 30 il əvvəl hərbi çevriliş cəhdi niyə və necə baş verdi?



**1993-cü ilin iyun hadisələri Azərbaycan tarixinə ən qalmaqallı proses kimi düşüb. Məhz həmin hadisələrin məntiqi nəticəsi olaraq ölkəmiz xaosdan, xalqımız vətəndaş müharibəsindən qurtuldu. Bəs 30 il əvvəl Gəncədən başlayan proseslər nədən qaynaqlanmışdı? Bu haqda çox yazılıb, rəylər verilib. Biz də bu hadisələrin şahidi olduğumuzdan öz prizmamızdan bir baxış ortaya qoymağa çalışacağıq. Əslində, 1993-cü ilin iyun hadisələrinə 3 istiqamətdə yanaşmaq lazımdır. Burada siyasi, iqtisadi və hərbi istiqamətlərdə mülahizə yürütmək vacibdir.**

## Sosial-iqtisadi faktorların rolu

AXC hakimiyyətə gəldikdən sonra ölkədə sosial-iqtisadi vəziyyət xeyli pisləşmişdi. Artıq 1993-cü ilin başlanğıcında Azərbaycanda büdcə kəsiri 10%-ə çatmışdı. Bu o demək idi ki, ölkəmizdə büdcə kəsiri 100 dəfə artmışdı. Bu isə, olduqca təhlükəli bir hal idi, çünki onsuz da cüzi məbləğdə olan büdcə sürətlə boşalırdı.

Emissiya ümumi gəlirlərin 50%-nə gəlib çatdı. Bankların kredit faizi birdən-birə 250 faizə yüksəldi. İnflyasiya faizi 1800-ə çatdı. Ən təhlükəlisi isə o oldu ki, bütün kreditləri bank faizlərilə qapatmağa başladılar.

Ölkədə xarici ticarət dövriyyəsi 60 faiz aşağı düşdü və iqtisadi cəhətdən dövlət çökdü. Minlərlə zavod, fabrik, istehsal müəssisələri, aqrar təsərrüfatlar bağlandı, nəticədə işsizlik və yoxsulluq sürətlə artdı, ölkədən xaricə kütləvi axın başlandı.

Əhalinin vəziyyəti son dərəcə ağırlaşmış, dövlətin fəaliyyətini saxlaya biləcək qədər belə büdcə formalaşmırdı. Ölkəni xaos tam bürüdü, dövlət aparatı iflic oldu, cəbhədə uğursuzluqlar baş aldı. Bütün bunlar göstərir ki, burada sosial-iqtisadi böhranın rolu danılmazdır. Bu ağır problemlər hərbi çevriliş cəhdi zamanı xalqın hakimiyyəti dəstəkləməməsinə səbəb oldu.

## Siyasi faktorların rolu

Siyasi aspektdən yanaşdıqda isə, hakimiyyətin daxilində qruplaşmalar və qarşıdurmaların yaranması kəskinləşmişdi. Hakimiyyət daxilində həmin parçalanmış qüvvələrin liderlərini hakimiyyətə gətirmək uğrunda mübarizə gedirdi. Beləliklə, hakimiyyət daxilində özbaşınalıq yarandı və sonda bütün komanda məşlubiyyətə uğradı.

Həmin vaxt ölkənin 4 "prezidenti" var idi. Birmənalı şəkildə vaxt daxili işlər naziri kimi İsgəndər Həmidov rəhmətlik Əbülfəz Elçibəyi heç eşitmirdi. Hətta Rəhim Qazıyev müdafiə naziri, İsa Qəmbər isə Ali Sovetin sədri kimi ona qulaq asmırdı.

AXC-nin ən böyük səhvlərindən biri də o oldu ki, Soçi danışıqlarında qərara alındı ki, Kəlbəcər ermənilərə verilsin və Dağlıq Qarabağ məsələsi beynəlmiləşdirilsin. Bu addımın nə qədər böyük cinayət olduğu indi daha aydın dərk olunur.

Kəlbəcər ermənilərə təhvil veriləndən sonra yeni hökumət müəyyənləşdirildi. Hakimiyyət daxilində 3 yerə bölünmüş qüvvələr arasında mübarizə başlandı.

Elçibəy tərəfində olan qüvvələr olduqca zəif idi. Prezident özü isə komandanı idarə etmək iqtidarında deyildi. Daxili gərginlik azmış kimi, Azərbaycana təsir rıçaqları son dərəcə güclü olan İranı və Rusiyanı qıcıqlandıracaq bəyanatlar yağdırılırdı.

Hakimiyyətin monolit olmaması öz təsirini gösətərdi. İsa Qəmbər hakimiyyəti bütövlükdə ələ keçirməyə cəhd edirdi. Bu istiqamətdə o ilk növbədə, prezidentin səlahiyyətlərinin bölüşdürülməsi, konstitusiyanın 121-ci maddəsinin 7-ci bəndinin dəyişdirilməsi məsələsi gündəmə gətirmişdi. Bu maddəni dəyişdirdilər. Məqsəd o idi ki, prezidentə hər hansı bir şey olarsa, onun səlahiyyətləri spikerə keçsin. Lakin İsa Qəmbərin hazırladığı plan özünə qismət olmadı. Proseslər nəzarətdən çıxmış və hakimiyyət iflic olmuşdu.

## Hərbi faktorların rolu

Hərbi cəhətdən, olduqca özbaşına bir vəziyyət yaranmışdı. Çox sayda özünümüdafiə batalyonları yaradılmışdı, kimin kimə tabe olduğu məlum deyildi. Müdafiə Nazirliyi kağız üzərində idi. Hər silahlı dəstə bir siyasi klanın mənafeyini qoruyur, özbaşına əməliyyatlar aparır, mənsub olduğu qruplaşmanın paytaxtda vəziyyəti pisləşəndə cəbhəni buraxıb Bakıya üz tuturdular. Qısa desək, Bakıda aparılan hakimiyyət davasına hər qruplaşma cəbhə bölgələrindən öz batalyonlarını çəkib gətirməklə dəstək verirdilər. Mitinqlərdə boşboğazlıq edilən vaxtda ermənilər Qarabağda şəhər və kəndlərimizi ələ keçirmək, əhalini məhv etməklə məşğul idilər.

Hakimiyyət vahid nizami ordu yarada bilmədi, xaotik özünümüdafiə batalyonlarının hərəsi bir siyasətçiyə tabe idi və





onun əmri ilə istənilən anda döyüş bölgəsindən geri çəkilirdi. Müharibə getdiyi bir dövrdə orduda xəyanətlər və hərbi cinayətlərin arası kəsilmirdi.

Hakimiyyət ordunun hərbi texniki bazasını gücləndirmək üçün mümkün imkanlardan istifadə edə bilmədi. Bir çox əməliyyatlar qeyri-peşəkar hazırlandığından böyük itkilərə və uğursuzluğa düçar oldu.

## Hərbi çevriliş cəhdi necə baş verdi?

Gəncədə 1993-cü il iyun hadisələri vəziyyəti daha da ağırlaşdırdı. Burada hökumətə tabe olmayan Surət Hüseynov rəhbərlik etdiyi bir qrup zabitlə "hərbi birlik" yaratmışdı. 709 nömrəli hərbi hissə Müdafiə Nazirliyinə tabe olmurdu. İqtidar hərbi müxalifətin öhdəsindən gələ bilmirdi.

İyunun 4-də səhər hərbi qiyamı yatırmaq üçün hökümət Gəncəyə 3 minədək canlı qüvvə, güclü hərbi texnika yeritdi. 709 nömrəli hərbi hissənin kazarmaları dağıdıldı, hərbi təyyarələr havaya qalxıb hava limanını darmadağın etdi. Lakin qiyamçılar təslim olmadılar. Onlar prezident qvardiyaçılarını şəhərdən çıxarmaq adı altında avtobusa doldurub güllələdilər.

Hökumət qüvvələri məğlub edildi. Qiyamçı hərbi hissələr Bakıya doğru yeriməyə, prezidentin və hökumətin istefaya getməsini tələb etməyə başladılar və müqavimətə rast gəlmədən paytaxta yaxınlaşdılar. İyunun 14-də Nəvahi yaxınlığında hökumət qoşunları ilə hərbi qiyamçı qüvvələr üz-üzə dayandı. Yaranmış vəziyyətlə əlaqədar parlamentin sədri, baş nazir, 3 güc nazirliyinin rəhbəri istefaya getməyə məcbur oldular.

Bu elə bir dövr idi ki, daşnakların "Böyük Ermənistan" yaratmaq niyyətləri, Azərbaycanı Qafqazın siyasi xəritəsindən silmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Ölkənin qabaqcıl adamları, ziyalılar, sadə əməkçilər böyük fəlakətin yaxınlaşdığını hiss edirdilər. Azərbaycan xalqı da nə qədər böyük təhlükənin astanasına gəlib çıxdığını anlağa başlamışdı.

## Sonuncu xilas yolu necə tapıldı?

1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər nüfuzlu ziyalısı Heydər Əliyevə Qurtuluş hərəkatına rəhbərlik etməsi barədə rəsmi müraciət etdi. Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası (YAP) təşkil edildi. Ölkənin nüfuzlu ziyalıları Heydər Əliyevin ətrafında birləşdi. Dövlətin dağılmaq üzrə olduğunu gec də olsa nəhayət dərk edə bilən iqtidar son anda kömək üçün Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevə müraciət etdi və 1993-cü il iyun ayının 6-da onu Bakıya dəvət etdilər.

Ümummilli lider xalqın bu ağır günündə dəvəti qəbul edib iyunun 9-da Bakıya gəldi. O, öz həyatını təhlükə altında qoyaraq Gəncəyə getdi. Hadisələrin daha faciəli nəticələrə gətirib çıxarmaması üçün öz sözünü dedi. Xalq arasında çox böyük nüfuzu olan dahi siyasətçinin Gəncəyə səfəri vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını aldı.

Ümummilli lider Heydər Əliyevin Ali Sovetə sədr seçilməsindən bir neçə gün sonra prezident Əbülfəz Əliyev prezident postunu qoyub Bakını tərk etdi. Dövlət başçısı ölkəni uzaq və kiçik Kələki kəndindən idarə edəcəyinə qərar verdi. Lakin ölkədə siyasi proseslərin qaynar vaxtında, hökumət böhranının gərgin məqamında, iğtişaş və qarşıdurmaların vətəndaş müharibəsinə gətirub çıxarmaq üzrə inkişaf etməsi dövlətin idarəsini qüdrətli bir siyasətçinin əlinə almasını şərtləndirirdi.

İyunun 15-də Heydər Əliyev parlamentin sədri seçiləndən sonra ilk növbədə vətəndaş qarşıdurmasının qarşısını almağa, respublikada sabitlik yaratmağa, iqtisadi sferada stabilliyi təmin etməyə, cəbhədə real vəziyyəti qiymətləndirib, dövlətin hərbi qüvvələrini və müstəqil özünümudafiə dəstələrini birləşdirib vahid mütəşəkkil ordu yaratmağa başladı.

Sonrası məlumdur. Azərbaycanda stabillik yarandı, sosial-iqtisadi islahatlar keçirildi, atəşkəsdən sonra ordunun möhkəmləndirilməsinə başlandı. Və 30 il sonra artıq qüdrətli iqtisadi, hərbi, siyasi mövqelərə malik Azərbaycan öz ərazilərini Ermənistan işğalından azad etdi.

Ümummilli lider 4 iyun hadisələrinə belə qiymət vermişdi: "4 İyun hadisələri hakimiyyətdəkilərin fərasətsizliyindən və öz işlərini görə bilməməyindən başlayıb". Həqiqətən də belə idi

*Elçin Bayramlı*



# Türkiyə

## Prezidentinə təbrik!





***Mürsəlova Ofelya Mürsəl qızı***
***ADPU-nun pedaqoqika kafedrasının sabiq baş müəllim***

Dünya türklərinin bayram şadlığı,
Prezidentdir: Rəcəb Tayyib Ərdoğan
Azərbaycan-Türkiyə qardaşlığı,
"Bir millət, iki dövlət"dir Gündoğan!...

Müdrikliyi Ulu Öndər Heydərin
Ürəkdən-ürəyə sevgi oyatdı!
Dostluq-qardaşlığın qoydu təməlin!
Dünyada o, pak nümunə yaratdı!...

Bir ürək, bir yumruq rəmzi alındı
Cahanı birliyə səslədi simvol!
Türkiyədə "Vətən" himni çalındı
Rəhbərə təbriklər, xoş gün - uğur, yol!...

Allah dayaq oldu zəfər yoluna!
Qüdrətli ölkənin rəhbəri oldun!
Bizim xalq gül-çəçək səpir yoluna
Yaxşı ki, bizimlə həmsirdaş oldun!,,,

# Uşaqlara uşaqpulu, ailələrə təşviq lazımdır

## Dövlət uşaqpulunu kateqoriya və yaş mərhələlərinə görə verə bilər

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*






Bəşəriyyətin xoşbəxtliyi uşaqların qorunmasından, onların yaxşı tərbiyə olunmasından asılıdır. Axı bu günün uşaqları sabahın böyükləri, dolayısı ilə idarəçisidirlər. Hər dövrün öz uşaqlığı, öz uşaq problemləri və həll yolları olub. Əslində, uşaq haqlarının müzakirəsi, sadəcə, onların təhlükəsizliyi yox, ümumilikdə dünyanın gələcəyinin təhlükəsizliyi deməkdir. Uşaqların rifah içində böyüməsi həm də dövlətdən asılıdır. Dövlət ailələrə həm mənəvi, həm maddi dəstək göstərməklə, eyni zamanda, demoqrafiq tarazlığı qoruyur.

Uşaqların birinci və təməl ehtiyacı qidalanma, sağlamlıq, təhsil kimi vacib ehtiyaclardır. Bunları təmin etmək vəzifəsi əlbəttə, ilk növbədə ailəyə aiddir. Amma dövlətin öz kiçik vətəndaşlarının təməl ehtiyaclarını ödəmək öhdəliyi var- təhsil vermək, sağlamlıqla bağlı problemlərini həll etmək, sosial müavinətlə təmin etmək kimi.

### Demoqrafik təhlükənin qarşısı uşaqpulu ilə alına bilər

Azərbaycanda əhalinin təbii artım tempi aşağı düşür. Bu vəziyyət dünyanın bir çox ölkəsində müşahidə edilir və hər ölkədə müxtəlif səbəb olsa da, əsas önə çıxan sosial, iqtisadi və psixoloji amillərdir. Əslində, bu statistika gözlənilən idi. Çünki bütün dünya insanları pandemiya imtahanından sonra dünyaya uşaq gətirməyin məsuliyyəti altına girmək istəmirlər. Bizim kimi çoxuşaqlılığı sevən cəmiyyətlərdə əhalinin təbii artım tempi azalırsa, Qərb ölkələrində vəziyyətin hansı həddə çatacağını təsəvvür belə etmək ürküdücüdür.

Azərbaycanda təkuşaqlı ailələr olduqca az idi, hətta dövrümüzün ailələri də, adətən, 2-3 uşaqlı olur, lakin yaşadığımız çətin dövr bir neçə uşağı təmin etməyin daha çox məsuliyyət tələb etdiyini bariz nümayiş etdirdiyi üçün bizdən asılı olmayan səbəblərə görə artıq ailələr 1 uşaqla kifayətlənməli olur. Gəlir kifayət qədər olmadığı, iş yerlərinin pandemiya dövründə bağlı olması, bütün dünyada bahalaşma müşahidə edildiyi üçün biruşaqlı ailələrin sayı getdikcə artır. 1 uşaqlı ailə isə bir cəmiyyətin gələcəyi üçün ciddi problemdir, demoqrafik fəlakətdir.

### Çoxuşaqlılığı necə stimullaşdırmalı?

Əgər uşaqpulu məsələsində tənzimləmə aparılsa, dövlət ailələrə uşağın təməl ehtiyaclarını ödəmək üçün çox da böyük olmayan yardımlar təşkil etsə, insanlar dünyaya uşaq gətirməkdən bu qədər qorxmaz. Uşaqpulu ilə bağlı müzakirələr aparılır, doğrudur, lakin hələlik, bir nəticə yoxdur. Əslində, söhbət o qədər də yüksək məbləğdən getmir. Əgər mexanizm işlənsə uşaqpulunu mərhələli şəkildə də tətbiq etmək olar, 1-3, 3-7, 7-18 yaş aralığına ayıraraq ehtiyaclara görə fərqli məbləğ təyin etmək mümkündür.

Belə olduqda həm dövlət büdcəsinə yük düşməz, həm də ailələr az da olsa qayğıdan azad olar. Dövlət uşaqlara ayırdığı vəsait ilə vətəndaşının yanında olduğunu, təbii artımın ölkə üçün nə qədər vacib olduğunu anlatmış olar. Əgər vətəndaş dünyaya uşaq gətirməyin özündən başqa heç kimi maraqlandırmadığını düşünərsə, bu fikirdən daşınar və bu da dolayısı ilə təbii artıma təsirini göstərər.

Həm də uşaqpulunun verilməsi təkcə artım üçün deyil, mövcud uşaqların daha sağlam, daha təhsilli böyüdülməsi üçün vacibdir. Xüsusən də, aztəminatlı ailələr üçün bu ciddi problemdir. Bu səbəbdən heç olmazsa, ilk növbədə, 3 və daha çox uşağı olan, yüksək gəlirə malik olmayan ailələrə yardımlar edilməlidir.

### Birdəfəlik ödəmə 500, aylıq ödəmə 0 AZN

Azərbaycanda uşaqlara verilən sosial müavinətlərin məbləğləri hazırda belədir: valideyninin itirməyə görə sosial müavinətin məbləği 120 manat, bir yaşınadək uşağı olan aztəminatlı ailələrə sosial müavinətin məbləği hər uşaq üçün 100 manat, uşağın anadan olmasına görə birdəfəlik sosial müavinətin məbləği isə 500 manat müəyyənləşib.

Yeri gəlmişkən, Azərbaycanda çoxuşaqlı ailə kriteriyaları da yumşaldılmalıdır. Mövcud qanunvericiliyə görə çoxuşaqlı ailə 5-dən artıq uşağı olan ailələr hesab edilir və dövlət bu halda onlara və uşaqların himayədarına hər uşağa görə 70 manat sosial müavinət ödəyir. Lakin razılaşarsınız ki hazırda ölkəmizdə 6 uşaqlı ailə nadir rastlanır. Çoxuşaqlılıq meyarı yenidən müzakirə edilə, kriteriyalar yumşaldıla bilər. Bu, əhalinin təbii artım tempini stimullaşdıra bilər. Bu məsələdə həm dövlət, həm də cəmiyyət maraqlı olmalıdır.

Cəmiyyətin istəyi uşaqların uşaqpulu ilə təmin olunmasıdır. Çünki bu müavinət birdəfəlik deyil və hər bir uşağa yetkinlik yaşına çatanadək ödənilir. Körpənin böyüməsi, qidalanması üçün dövlətin göstərəcəyi dəstək hazırkı dövrdə ailələr üçün vacibdir. Dünyada bir çox ölkə uşaqpulunun verilməsi ilə bağlı fərqli mexanizmlər tətbiq edir. Yaş həddinə görə müavinətin təyin edildiyi ölkələr var, bəzisində 13-14, bəzisində 16-17 yaşına qədər, uşaq əmək qabiliyyətli yaş həddinə çatanadək uşaq pulu ödənir. Elə ölkələr var ki, orada uşaq qidasına görə ayrıca müavinət ödənir. Çünki hazırda ana südü ilə qidalandırma göstəriciləri də demək olar dünyada aşağı faizdir. Süni qidalarsa çox bahadır. Bunları nəzərə alaraq uşaq pullarının bərpa edilməsi də məqsədəuyğun olardı. Hətta simvolik bir məbləğ də ailələrə dəstəkdir, eyni zamanda dövlətə qarşı güvənini artırmağa yetərlidir.

### Dövlətimizin uşaqpulu üçün vəsaiti var

Bizə nisbətən yaxın ölkələrdə uşaqpulu ilə bağlı vəziyyət qənaətbəxşdir. İndi Rusiyada hamilə kimi qeydiyyata düşən qadına hamiləliyin 6-cı həftəsindən doğuşadək aylıq 6.350 rubl (140 AZN) pul ödənilir. Doğandan sonra uşaq 3 yaşına çatanadək ayda 11.300 rubl (250 AZN), 3-dən 7 yaşına kimi hər ay 8.475 rubl (187 AZN), 16 yaşına kimi isə ayda 5.650 rubl (125 AZN) uşaqpulu ödənilir. Bundan əlavə doğulan hər vətəndaşı üçün dövlət 450. 000 rubl (10.000 AZN) dəyərində sertifikat verir, bu məbləği valideyn əmlaka yatıra bilər, ipoteka ilə ev alanda ilkin ödəniş kimi verə bilər. 3-cü uşaq üçün isə bəzi bölgələrdə yaşayış evi, bəzi bölgələrdə torpaq sahəsi verilir.

Gürcüstanda sosial cəhətdən həssas uşaqlar üçün dövlət müavinəti 150 LARİ-dir (100 AZN). Bu müavinət 215 mindən çox uşaq üçün ayrılır. Türkiyədə birinci uşaq 300 TL(25 AZN), ikinci uşaq üçün 400 TL(32 AZN), üçüncü uşaq üçün isə 600 TL (50 AZN) verilir. Qazaxıstanda 18 yaşa qədər uşaqlar dövlətdən ayda 20 min tengə (76 AZN) ödəniş alır. Özbəkistanda isə 2 yaşa qədər uşaqlara ayda 1 milyon som (147 AZN) ödənilir. İranda hər yeni doğulan uşaqüçün açılan bank hesabına dövlət 1000 dollar pul yatırır, hər ay bu məbləğin üzərinə 100 dollar əlavə edir. Uşaq 18 yaşına çatanadək yığılan vəsait özünə ödənilir.

### Uşaqpulu yerinə sosial yardım?

Bir neçə gün öncə Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov mətbuat kpnfransında nazriliyin uşaq pulu məsələsinə ünvanlı müavinət olaraq kimi baxdığını dilə gətirib. Yəni dövlətin aztəminatlı ailələrə verdiyi sosial yardım həm də o ailələrə uşaqpulu kimi ünvanlanır. Hazırda 615 min uşaq sosial yardım xətti ilə müavinət alır. Nazir müavini buna görə uşaqpulu məsələsinə hələ ki ayrıca məsələ kimi baxılmadığını dedi.

Müqayisə etdikdə Azərbaycan iqtisadi gücünə və gəlirlərinə görə bu ölkələrin əksəriyyətinə nisbətən yaxşı vəziyyətdədir, neftdən, təbii sərvətlərdən əldə edilən gəlirin kiçik bir hissəsi ilə uşaqpulu problemini həll etmək mümkündür. Başlanğıcda böyük rəqəmlərdən danışmağa dəyməz, ailələrə dəstək üçün bir uşağa görə 50 AZN ödəmək də dəstəkdir. Bu, həm ailələrin yükünü azacıq da olsa yüngülləşdirmək, həm də dövlətə olan etimadı gücləndirmək deməkdir.



**Lalə Mehralı**

SON SƏHİFƏ
SƏS
6 iyun
2023-cü il

# Avtomobillər bahalaşacaq?

*EKSPERT AYDINLIQ GƏTİRDİ*



"Avtomobillərin utilizasiyası ilə bağlı hər hansı bir qiymət artımından danışarkən qeyd etmək lazımdır ki, Dövlət Gömrük Komitəsində qanunvericiliyə əlavə və dəyişiklikləri özündə ehtiva edəcək yeni qanun layihəsinə əsasən bu, birdəfəlik ödəmə sayılacaq. Hüquqi və fiziki şəxs olmasından asılı olmayaraq hər bir sahibkar bu utilizasiya haqqını avtomobilin dəyəri üzərinə əlavə edəcəklər". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov deyib.

Onun sözlərinə görə, bu da birbaşa istehlakçının məsuliyyətindədir: "Bundan istifadə edərək qiymət artımı etmək istəyən istənilən halda bunu edəcəkdir. Amma daha vacibi odur ki, Dövlət Gömrük Komitəsi utilizasiya haqqına hansı məbləği əlavə edəcəkdir. Bu məbləğ dörddən az yaşı olan avtomobillərin məbləğinə nə qədər ekvivalent olacaq. Əgər az bir məbləğdə ekvivalent olacaqsa, bir o qədər qiymət artımı olmayacaq. Əks təqdirdə qiymət artımını müşahidə edəcəyik".

Ekspert sözlərinə davam edərək bildirib ki, ən yaxşı hal utilizasiya haqqına hər hansı məbləğ əlavə edilənə qədər avtomobillərin rəsmiləşdirilməsində dövlət rüsumlarının təyinini nəzərə almaq lazımdır: "Çünki MDB və digər qonşu ölkələrə nisbətən bizdə avtomobillərin idxalı zamanı rəsmiləşdirmə kifayət qədər fərqli qiymətdədir. Ona görə eyni model avtomobillər digər ölkələrə nisbətən Azərbaycanda bahadır. Bu nöqteyi-nəzərdən daha çevik və müasir avtomobillərin ekoloji cəhətdən də gətirilmə mexanizmləri işlənilsə istehlakçılar tərəfindən daha cəlbedici olar, nəinki qiymət artımına səbəb olacaq addımların atılması".

***Ləman Əlizadə***

# DİQQƏT:

## Diplomlar bu hallarda tanınmır!









**MÜTƏXƏSSİS AÇIQLADI**

"Diplomların tanınmaması ilə bağlı müəyyən kriteriyalar var. Belə ki, həmin tələbənin iddia etdiyi ixtisas üzrə müəyyən biliklərə sahib olması, tədris aldığı dil, ixtisası barədə müəyyən qədər biliklərin olması və iddia etdiyi universitetin reytinq siyahısında yer alıb-almaması kimi məqamlar olduğu təqdirdə diplom tanınır. Yerdə qalan digər hallarda isə təəssüflər olsun ki, diplom tanınmır". Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə mütəxəssis Elçin Əfəndi deyib. Onun sözlərinə görə, bundan əlavə qiyabi, distant təhsil forması olan diplomlarla yox, yalnız əyani təhsil forması olan diplomlar tanınır: "Nəticə etibarilə Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsildə Keyfiyyət Agentliyi tərəfindən müvafiq olaraq müraciət edən şəxslərin sorğuları əsasında araşdırma aparılır. Kimlərdə diplomların tanınması ilə bağlı problem yoxdursa, onların diplomları tanınır və bununla bağlı xəbərdarlıq olunur. Tanınmadıqda da şəxsə eyni şəkildə bunun səbəbi ilə bağlı məlumat verirlər".

Elçin Əfəndi sözlərinə belə davam edib: "Xaricdə təhsil alarkən vətəndaşlarımız bəzi məqamlara mütləq diqqət etməlidirlər ki, onların təhsil alacaqları universitet dünya reytinq siyahısında yer tutsun, onlar hansı dildə təhsil alacaqsa həmin dil barədə biliklərə sahib olmalıdırlar. Həmçinin, təhsil aldıqları ixtisas barədə biliklərə sahib olmalıdırlar. Eyni zamanda, onların təhsil aldıqları dövr ərzində ölkəyə giriş və çıxışları vətəndaş pasportunda öz əksini tapmalıdır. Belə olduğu halda diplomun tanınması mümkün ola bilər. Bu amillər mütləq nəzərə alınmalıdır".

***Ayşən Vəli***

## İkardidən mesaj: "Ağlama fənər!"




Dünən axşam öz meydanında əzəli rəqibi olan "Fənərbaxça"nı Nikolo Zaniolo və Mauro İkardinin qolları ilə 3:0 məğlub edən çempion "Qalatasaray" həm qələbəsini, həm də çempionluğunu böyük coşqu ilə qeyd edir. Xüsusilə mövsümün son qarşılaşmasında öz meydanında "Fənərbaxça"nı məğlub edib Türkiyə çempionluq kubokunu başı üzərinə qaldırmaq "Qalatasaray"lılar üçün ikiqat sevincdir. Müqavilə ilə Fransanın PSJ klubuna məxsus olan argentinalı futbol ulduzu M.İkardi isə dünən axşamkı qarşılaşmadan sonra əzəli rəqibə sosial media hesabından mesaj yollayıb. Onun "Fənər ağlama" mesajı "cim-bom" azarkeşləri tərəfindən "layk yağışına" tutulub.

***Mətləb***

# "Hədəfim dördüncü dəfə dünya çempionu olmaqdır"

"Sözsüz ki, keçiriləcək dünya çempionatı ilə bağlı yalnız qələbə düşünürəm. Mənə elə gəlir ki, bu dünya çempionatı mənim karyeram ərzində ən önəmli çempionatlardan biridir. Çünki bu dünya çempionatı olimpiya oyunlarına vəsiqə qazandırır. Ona görə də bu çempionata heç bir yarışa hazırlaşmadığım qədər həvəslə hazırlaşmalıyam". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycanın sərbəst güləşçisi Hacı Əliyev deyib.

Onun sözlərinə görə, yarışa hazırlıqlar yaxşı gedir: "İlin əvvəlindən etibarən bir neçə təlim-məşq toplanışımız olub. Bu yaxınlarda da Şimali Osetiyanın paytaxtı Vladiqafqazda təlim-məşqdə olduq. Hazırda 10 günlük bir istirahət müddətindəyik. Lakin biz yenə də hər gün bir dəfə olmaqla məşqlərimizi davam etdiririk. Ayın 18-i bizi Göygöldə təlim-məşq toplanışı gözləyir. Göygöldən sonra isə yenə təlim-məşq toplanışı üçün Vladiqafqaza yollanacağıq. Bir sözlə, dünya çempionatına qədər tam olaraq istirahət etməyəcəyik".



H.Əliyev sözlərinə davam edərək bildirib ki, bu çempionatdan gözləntisi dördüncü dəfə dünya çempionu olmaqdır: "Doğrudur, ölkəmizdə güləş üzrə məndən başqa üç dəfə çempion olan biri yoxdur. Amma dördüncü dəfə çempion olmaq daha da gözəl olar. Azərbaycanda da dördqat dünya çempionu olar. Bu, hazırda dünyada olan nadir hallardandır. Üç qat dünya çempionların sayı belə çox azdır. Mən çalışacam ki, olimpiya oyunlarına vəsiqə qazanım. Ümid edirəm ki, yoldaşlarım da çempionatda uğurlu çıxışlar edərək xalqımızı layiqincə təmsil edəcək".

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000